Xalqın qəzeti!
# Xalq qəzeti
№ 161 (30277) 2 avqust 2023-cü il, çərşənbə
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

### Prezident İlham Əliyev:

**Qarabağ ermənilərі başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən, təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar daha manipulyasiyanın girovu olmayacaqlar.**

# Azərbaycan – Türkiyə əməkdaşlığı yeni çağırışlar fonunda



**Azərbaycanın baş diplomatının qardaş ölkəyə səfəri haqqında mətbuatda verilmiş xəbərləri oxuyanda Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iki il əvvəl Bakıda səsləndirdiyi fikirlər yada düşdü.**

Cənab Prezident demişdi ki, biz bölgədə davamlı sülhün və hərtərəfli normallaşmanın tərəfdarıyıq: "Bu coğrafiyadan keçəcək quru və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi və ticari fürsətlər yaradacaq. Gün gələcək, Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik. Iğdıra, Qarsa gedə biləcəyik. Bölgənin tranzit, logistik mərkəz kimi mövqeyi möhkəmlənəcək... İran, Gürcüstan və Ermənistan da daxil olmaqla, Azərbaycanın bütün qonşuları bundan istifadə edə biləcəklər".

Bu iqtibası yada salmağımız heç də təsadüfi deyil. Ümumiyyətlə, türk dünyasının müasir ictimai-siyasi proseslər fonunda özünəməxsus nüfuz qazanması bir çox siyasi dairələrdə alqışlansa da, bu faktı bəzi qütblər açıq şəkildə qısqanclıqla qarşılayırlar. Kimi Azərbaycanın İkinci Qarabağ müharibəsindəki tarixi Qələbəsini həzm edə bilmir, kimi Türkiyənin Avrasiyadakı uğurlarından narahat olur, kimi də, Şanxaydan Londona qədər uzanacaq yeni iqtisadi layihələrin Türkdilli ölkələrin iqtisadi inkişafına möhtəşəm töhfə verəcəyindən qorxur.

(ardı 3-cü səhifədə)

## İsveçrə Konfederasiyasının Prezidenti Zati-aliləri cənab Alan Berseyə

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə İsveçrə arasında dostluq əlaqələri, qarşılıqlı faydalı əməkdaşlığımız bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə daha da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, İsveçrə Konfederasiyasına daim rifah və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2023-cü il**

# ABŞ-nin kompromis məntiqi: İrəvan iki çətin yoldan birini seçməlidir

**ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerin dünənki ənənəvi brifinqdə işlətdiyi bir ifadə var. O bildirib ki, Azərbaycan və Ermənistan sülh sazişinin imzalanmasına nail olmaq üçün çətin kompromislərə getməli olacaqlar. Əslində, oxşar mövqeni Birləşmiş Ştatlar Administrasiyası həmişə bəyan edib. Elə Miller də bu məqama diqqət yetirir və vurğulayır ki, Dövlət katibi Antoni Blinkenin tərəflərlə dialoqu davam edir. Bu dialoq isə haqqında söz açılan çətin kompromisləri təşviq etmək məramına söykənir.**




Ermənistan mediasının yazdığına görə, M.Miller Laçın yolunda və münaqişə zonasında vəziyyətin gərginləşməsinə münasibət bildirməkdən yayınıb. Əlbəttə, Vaşinqton Azərbaycan–Ermənistan münasibətləri ilə bağlı hansısa fikir ifadə etməkdə xeyli ehtiyatlı görünür. Birincisi, ABŞ erməniپərəstlik dalğasının mövcudluğunu nəzərə alır və obyektiv həqiqətləri dilə gətirməkdən yayınır. Çünki həmin dalğa istənilən an ölkəni Azərbaycanın tərəfində dayanan kimi göstərmək potensialındadır. Bu isə Ağ evin vasitəçilik missiyasına, daha doğrusu, bütövlükdə, Qərb tənzimləmə xəttinə zərərdir.

(ardı 4-cü səhifədə)

# Prezidentin qalibiyyət missiyası, Ermənistana xəbərdarlıq, Qarabağ ermənilərinə şans

## Dövlətimizin başçısının "Euronews" telekanalına müsahibəsindəki xarakterik məqamlara baxış

**Prezident İlham Əliyev "Euronews" telekanalına müsahibəsində Azərbaycan–Ermənistan münasibətləri, Cənubi Qafqazın sülh gündəmi, İrəvanın Qarabağ ermənilərinin humanitar durumu ətrafında yaratdığı siyasi şou və sair bu kimi məsələlərlə bağlı fikirlərini bölüşüb, həmçinin ölkəmizin mövqeyinə aydınlıq gətirməklə, prinsipial baxış ortaya qoyub. Şübhəsiz ki, müsahibə bəzi beynəlxalq dairələrin Bakı–İrəvan münasibətləri kontekstində nümayiş etdirdikləri erməniپərəst yanaşmalara da tutarlı cavab baxımından son dərəcə əhəmiyyətlidir.**

Ümumən, dövlətimizin başçısı dünyanın nüfuzlu media orqanına bu müsahibəsi ilə 44 günlük müharibə dönəmində olduğu kimi, Azərbaycana qarşı yönəlmiş informasiya terroruna qarşı əks-arqument cəbhəsi açdığını yenidən göstərdi.

Məsələn, Prezident İlham Əliyev Ermənistanın Laçın yolu müstəvisindəki oyunlarına cavab olaraq bildirdi ki, sözügedən yolda hərəkət azadlığı bloklanmayıb. Ölkəmizin aprelin 23-dən sərhəd keçid məntəqəsi qurduğu vaxtdan etibarən, Qarabağın iki mindən artıq sakininin Ermənistana asan şəkildə gedib gəlmək imkanı əldə etdiyini diqqətə çatdıran dövlətimizin başçısı bildirib ki, iyunun 15-də Ermənistan növbəti hərbi təxribata əl atdı və Azərbaycan sərhədçilərindən birini yaraladı: "Araşdırma aparıldığı üçün yol müvəqqəti olaraq bağlansa da, sonra təkrar açıldı. Qırmızı Xaç Komitəsi dava-dərmanın nəqlini və Ermənistanda müalicəyə ehtiyacı olan xəstələrin təxliyəsini bərpa etdi. Lakin əfsuslar olsun ki, Qırmızı Xaç Komitəsinin yük maşınlarının yoxlanılması zamanı siqaret, iPhone-lar və benzin kimi məhsulların qaçaqmalçılıqla keçirilməsi aşkar olundu. Qırmızı Xaç Komitəsi bunu etiraf etdi və bildirdi ki, onlar buna görə heç bir məsuliyyət daşımırlar... Lakin bu yük maşınlarının üzərində də, sürücülərin uniformaları üzərində də Qırmızı Xaçın emblemləri var idi".

*

Məlum olduğu kimi, Azərbaycan Prezidentinin yuxarıdakı iqtibasda göstərdiyi xüsuslar onlara qarşı cavab tədbirlərinin görülməsini aktuallaşdırırdı ki, bu tədbirlər Ermənistan hakimiyyəti, erməniپərəst dairələr tərəfindən Qarabağ ermənilərinin humanitar durumunun ağırlığı ilə bağlı mənasız ritorikanı doğurub. İndi də həmin ritorika davam etməkdədir. Bu isə yekun nəticədə bölgədə separatizmin saxlanılmasına xidmət edir. Belə bir avantüra üçün bölgənin sıravi insanları alətə çevrilmiş durumdadırlar. Məhz mövcud səbəbdən Prezident İlham Əliyev "Euronews"a müsahibəsində onlara üz tutur və bildirir ki, Qarabağdakı ermənilər qondarma liderlərinin arxasınca getməməlidirlər. Həm də ona görə getməməlidirlər ki, adlarını lider qoyan ambisiozlar qrupu daim yalan danışıb. Həmin qurup eyni yalanlarını təkrarlayır. "Qarabağ ermənilərі başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən, təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar daha manipulyasiyanın girovu olmayacaqlar. Düşünürəm ki, onlar dinləsələr, məni anlayacaqlar. Onlar bilirlər ki, mən öz sözümə əməl edirəm", – deyən cənab İlham Əliyevin xüsusən axırıncı fikrinin üzərində dayanaq.

Nəzərə alaq ki, Ermənistanın ayrı-ayrı siyasi dairələrində Azərbaycan Prezidenti sözünə daim əməl edən lider kimi tanınmaqda və qəbul edilməkdədir. Ölkənin bəzi siyasi ekspertləri bu məqamı özlərinin çıxışlarında vurğulayırlar. Çox yaxşı olardı ki, Qarabağ erməniləri də buna diqqət yetirsinlər və separatçıların və millətçilərin əsirliyindən çıxmaq üçün özlərində cəsarət tapsınlar.

(ardı 3-cü səhifədə)

# Beynəlxalq hüququ ayaqlar altına atmayın, cənablar!




**Üstündən nə qədər vaxt keçməsinə baxmayaraq, cinayət törətmiş şəxs mütləq öz cəzasına çatmalıdır. Hətta dünyasını dəyişmiş olsa belə, məhkəmənin çıxardığı qərar onun qəbri üzərində belə oxunmalıdır. Vaqif Xaçatryan olayı Qarabağ iqtisadi rayonumuzda günlərini sayan separatçı rejimə, onun funksionerlərinə xəbərdarlıq mesajıdır. Onları qarşıda gözləyən oxşar aqibətdən yan keçmək üçün bu olaydan nəticə çıxarmalı, təslim olmalı, bəlkə onda amnistiya aktı ilə bağışlanma ehtimalı gerçəkləşə bilər. Amma bu humanizm əli soydaşlarımızın qanına bulaşmış qatillərə göstərilməyəcək. Hərbi cinayətkarlar ya ərazimizdən çıxışda, yəni Həkəri sərhəd nəzarət-buraxılış məntəqəsində, ya da keçiriləcək növbəti antiterror əməliyyatı zamanı həbs olunacaqlar.**

Səhifə ⇨ 3

# Daşınmaz əmlak tarifləri aşağı salındı



Səhifə ⇨ 8

# Ortaq köklər, birgə hədəflər, eyni maraqlar

Səhifə ⇨ 11

# Makroiqtisadi sabitlik iqtisadi strategiyanın uğurudur



Səhifə ⇨ 7

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 25 avqust tarixli 386 nömrəli, "Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əlavələrin və dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 29 mart tarixli 44 nömrəli və "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1285-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2015-ci il 14 iyul tarixli 567 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 936-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609; 2001, № 10, maddə 640; 2003, № 8, maddə 435, № 10, maddə 552; 2004, № 6, maddə 435; 2005, № 2, maddə 64, № 5, maddə 403; 2006, № 7, maddə 590, № 12, maddə 1034; 2007, № 3, maddə 228, № 6, maddə 606, № 11, maddə 1110, № 12, maddə 1246; 2008, № 6, maddə 493; 2009, № 3, maddə 163, № 5, maddə 324; 2010, № 5, maddə 399, № 7, maddələr 610, 628; 2011, № 8, maddə 751; 2012, № 6, maddə 535; 2014, № 6, maddə 626; 2016, № 9, maddə 1464, № 12, maddə 2071; 2017, № 2, maddə 186; 2018, № 1, maddə 43, № 2, maddə 171, № 7 (I kitab), maddə 1448; 2019, № 4, maddə 617, № 7, maddə 1239; 2020, № 5, maddə 540, № 7, maddə 891; 2022, № 8, maddə 863; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 iyul tarixli 2209 nömrəli Fərmanı) 3.16-cı bəndi ləğv edilsin.

**2.** "Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əlavələrin və dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 mart tarixli 44 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 145; 2009, № 3, maddə 163; 2016, № 8, maddə 1374; 2017, № 6, maddə 1109) 3-cü hissəsində "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1285-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 567 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 835; 2016, № 8, maddə 1378; 2017, № 1, maddə 45, № 6, maddə 1102) 5-ci hissəsində "Maliyyə Bazarlarına Nəzarət Palatası," sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 avqust 2023-cü il**

## Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət orqanlarında (qurumlarında) kargüzarlığın aparılması sahəsində qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunmaqla "kağızsız hökumət"ə keçid prosesinin sürətləndirilməsi və rəqəmsal idarəçiliyin tətbiq edilməsi məqsədilə **qərara alıram:**

**1.** Elektron Hökumət İnformasiya Sisteminin infrastrukturunda dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemləri arasında real vaxt rejimində və təhlükəsiz qaydada sənəd mübadiləsinin aparılması ilə bağlı inteqrasiyanın və sənədlərin hərəkəti üzrə uçotun həyata keçirilməsini təmin edən Rəqəmsal Sənəd Dövriyyəsi altsistemi (bundan sonra – altsistem) yaradılsın.

**2.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi altsistemin 2023-cü il sentyabrın 1-dək formalaşdırılmasını təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. idarələrarası elektron sənəd dövriyyəsi sistemi ilə bağlı təkliflərini dörd ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. altsistemin, bu Fərmanın 6-cı hissəsinə əsasən yaradılacaq elektron sənəd dövriyyəsi sistemlərinin formalaşdırılması, aparılması və saxlanılması ilə əlaqədar xərclərin cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi üçün, növbəti illərdə isə dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulması üçün tədbirlər görsün;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinə tapşırılsın və Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Azərbaycan Respublikasının Mərkəzi Bankına, Azərbaycan Respublikasının Hesablama Palatasına, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatına, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının Aparatına, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyinə, Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyinə, Azərbaycan Respublikası Audiovizual Şurasının Aparatına, Azərbaycan Kredit Bürosuna, İcbari Sığorta Bürosuna tövsiyə edilsin ki, altsistem formalaşdırıldıqdan sonra elektron sənəd dövriyyəsi sistemlərini altsistemə inteqrasiya etməklə digər dövlət orqanları (qurumları) ilə sənəd mübadiləsinin həmin altsistem üzərindən aparılmasını təmin etsinlər.

**5** Mərkəzi icra hakimiyyəti orqanları 2023-cü il noyabrın 1-dək, yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər 2024-cü il avqustun 1-dək mövcud elektron sənəd dövriyyəsi sistemlərini altsistemə inteqrasiya etməklə digər dövlət orqanları (qurumları) ilə sənəd mübadiləsinin həmin altsistem üzərindən aparılmasını təmin etsinlər.

**6** Elektron sənəd dövriyyəsi sistemləri mövcud olmayan dövlət orqanları (qurumları) altı ay müddətində elektron sənəd dövriyyəsi sistemlərinin yaradılması ilə bağlı tədbirlər görsünlər.

**7** Dövlət orqanları (qurumları) bu Fərmanın 5-ci və 6-cı hissələrində nəzərdə tutulan tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na uyğun olaraq, texniki və səmərəlilik baxımından məqsədəuyğunluğu haqqında Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəyi nəzərə alınmaqla həyata keçirsinlər.

**8** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

8.1. dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemlərinin altsistemə qoşulması üçün onları mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin;

8.2. dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemlərinin altsistemə inteqrasiyası üçün onların informasiya təhlükəsizliyi tələblərinə cavab verməsi ilə bağlı rəy versin;

8.3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə altsistemin informasiya təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 9 fevral tarixli 530 nömrəli və "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 155-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 9 mart tarixli 823 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 943-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 fevral tarixli 530 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 96; 2010, № 2, maddə 80; 2014, № 5, maddə 477; 2016, № 3, maddə 433, № 10, maddə 1610; 2017, № 7, maddə 1338; 2020, № 7, maddə 866) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddən "2.1.5-1-ci," sözləri çıxarılsın;

1.2. 2.2-ci bənd ləğv edilsin.

**2.** "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 155-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 mart tarixli 823 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 444) 3-cü hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 avqust 2023-cü il**

## "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 937-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

"Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220, № 4, maddə 323, № 6 (I kitab), maddə 585, № 12, maddələr 1398, 1425; 2022, № 1, maddə 22, № 2, maddə 235, № 12, maddə 1456; 2023, № 2, maddə 235, № 4, maddə 469) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.1-ci bənddən "13.2.59-cu," sözləri çıxarılsın.

**2.** 1.40-cı bənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 avqust 2023-cü il**

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 957-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; 2018, № 12 (I kitab), maddə 2614; 2019, № 2, maddə 211; 2020, № 8, maddə 1029, № 11, maddələr 1360, 1362; 2021, № 12, maddə 1400; 2022, № 8, maddə 840; 2023, № 1, maddə 46, № 3, maddə 345) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1-ci bənddən "və 16.2.4-cü" sözləri çıxarılsın.

**2.** 2.14-cü bənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 avqust 2023-cü il**

## "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 945-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 157-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 9 mart tarixli 825 nömrəli, "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 18 may tarixli 1415 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 945-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 13-1.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 13-1.7-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 945-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

3.1. aşağıdakı normativ xarakterli aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 6-1-ci hissəsinə uyğun olaraq, valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən aparılan valyuta mübadiləsi əməliyyatlarının yuxarı həddini;

3.1.2. həmin Qanunun 13-1.2.8-3-cü maddəsinə uyğun olaraq, məlumatın formasını;

3.1.3. həmin Qanunun 13-10.1-ci maddəsinə uyğun olaraq, valyuta mübadiləsi fəaliyyətinin həyata keçirilməsi üçün girov vəsaitinin məbləğini;

3.1.4. həmin Qanunun 13-10.10-cu maddəsinə uyğun olaraq, valyuta mübadiləsi fəaliyyətinə lisenziya almaq istəyən şəxsin nizamnamə (şərikli) kapitalının minimum miqdarını, habelə mübadilə fəaliyyətinə lisenziya almış şəxsin bu fəaliyyəti həyata keçirdiyi hər ikinci və növbəti obyekt üçün nizamnamə (şərikli) kapitalının artırılmalı hissəsinin miqdarını;

3.2. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü 6 iyul tarixli 945-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4.** "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 157-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 mart tarixli 825 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 446) 3-cü hissəsi ləğv edilsin.

**5** "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 may tarixli 1415 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 819; 2019, № 3, maddə 408; 2021, № 12, maddə 1373; 2022, № 8, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci, 2.3-cü və 2.5-ci bəndlər ləğv edilsin;

5.2. 2.2-ci bənddə "həmin Qanunun" sözləri "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 avqust 2023-cü il**

## "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 942-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 31 avqust tarixli 115 nömrəli, "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 143-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 10 mart tarixli 831 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 942-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli 115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 623; 2007, № 6, maddə 601; 2010, № 3, maddə 180; 2014, № 9, maddə 1027; 2016, № 6, maddə 1056; 2017, № 3, maddə 353, № 8, maddə 1521, № 11, maddə 1999; 2022, № 12, maddə 1440) 3.6-cı bəndinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 3.7-ci, 3.8-ci bəndləri ləğv edilsin.

**2.** "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 143-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 mart tarixli 831 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 452) 3-cü hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 942-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

4.1."Poçt haqqında" Azərbaycan Respublikası Qanununun 13-3.7-ci maddəsinə uyğun olaraq, informasiya təhlükəsizliyinin təmin edilməsinə dair minimum tələbləri altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 942-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 avqust 2023-cü il**

# Prezidentin qalibiyyət missiyası, Ermənistana xəbərdarlıq, Qarabağ ermənilərinə şans



(əvvəli 1-ci səhifədə)

Qarabağ erməniləri onu da düşünsünlər ki, Azərbaycanın yanaşması beynəlxalq hüquqa əsaslanır. Bu əsaslanma isə prinsipial əhəmiyyət daşısa da, bəzən sərtliyi ilə seçilsə də, mahiyyətcə aqressiv ritorikadan uzaqdır. "Biz nə bu gün, nə də gələcəkdə daha bir müharibə istəmirik", – deyən Prezident İlham Əliyev Qarabağ erməniləri ilə yanaşı, Ermənistandakı ermənilərə də üz tutur və bəyan edir: "Mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik. Onlara digər mesajım ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır".

Dövlətimizin başçısının ikinci mesajını xəbərdarlıqla yanaşı, daha çox gerçəklikləri görmək üçün fürsət vermək, ayıltmaq istəyi kimi də dəyərləndirmək mümkündür. Gerçəkliklərdən söz düşmüşkən, cənab İlham Əliyev müsahibəsində acı gerçəklikləri də yada salır və əslində, Ermənistanın hazırkı acınacaqlı durumunun keçmişə söykənmiş trayektoriyasını cızmaqla bildirir ki, uzun illər ərzində Ermənistanın liderləri xalqı aldadıblar. Nəticədə erməni xalqı inanıb ki, ölkələri dünyanın ən güclü ordusuna sahibdir, əgər müharibə başlasa, Bakını ələ keçirəcəklər: "Müharibə bu hekayələri məhv etdi".

*

Bəli, hazırda hekayələrə yer yoxdur. Hekayələr yerini sərt reallıqlara verib. Ancaq Ermənistanın şansı var ki, həmin reallıqlardan maksimum az itki ilə çıxsın. Bunun ən yaxşı yolu isə Azərbaycanla sülh müqaviləsidir. Yeri gəlmişkən, Prezident İlham Əliyev "Euronews"a müsahibəsində sülh prosesinə də ətraflı nəzər salıb. Daha doğrusu, həmin prosesin Qərb nizamlaması xəttinə. Bu xətt çərçivəsində Avropa İttifaqının rolunu vurğulayıb. Xüsusən də Aİ Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsünü.

Ş.Mişelin təşəbbüsü, eyni zamanda ona görə cəlbedicidir ki, onun təmsil etdiyi qurumun istər Azərbaycanla, istərsə də Ermənistanla əməkdaşlıq səviyyəsi yüksəkdir. "Düşündüm ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər, çünki bizim onunla münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir. Bir sözlə, həmin təşəbbüs hazırda çox fəal dialoq formatına çevrilir, çünki biz təkcə Brüsseldə deyil, həmçinin Avropa Sülh Təşəbbüsü çərçivəsində də görüşürük. Sonuncu dəfə bu görüş Kişineuda baş tutdu. Bunu vacib hesab edirəm, çünki vəziyyətin durğun olmasına imkan vermirik, çünki durğunluq yaranarsa, onda biz hər hansı təhlükəli ssenaridən sığortalana bilmərik", – deyə Prezident İlham Əliyev fikrinə aydınlıq gətirib.

*

Bütün yollar sülhə aparmalıdır. "Sülh sazişinin əsas bəndləri nazirlər tərəfindən tərtib edilir", – deyən dövlətimizin başçısı Ermənistanın baş naziri Nikol Paşinyanla danışıqlara dair suala cavabında bunları bildirib: "Bizim görüş isə hesab edirəm ki, yaxşı mühit yaradır. Lakin əgər biz Ermənistan tərəfindən konstruktiv yanaşma görsək, ən vacibi isə əgər onlar ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysalar, onda biz tezliklə, bəlkə də, ilin sonunadək sülh variantını tapa bilərik".

*

Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan rəhbərliyi ilə görüşlər çox həssas məsələlərə toxunmaq imkanı verir: "Məsələn, sərhədlərin gələcək parametrləri – Ermənistanla Azərbaycan arasında sərhəd müəyyən olunmayıb. Çünki Sovet İttifaqı süquta uğradıqdan dərhal sonra biz həmin təcavüzlə üzləşdik. İndi sərhəd necə olacaq? Yerlərdə real vəziyyət necə olacaq? Kommunikasiyalarla bağlı vəziyyət necə olacaq? Axı İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın imzaladığı sənəddə onun öhdəliyi var ki, bizim Naxçıvan kimi eksklavımıza çıxışımız olsun. Lakin bu, hələ də baş vermir".

*

Prezident İlham Əliyevin "Euronews" telekanalına müsahibəsindəki ən vacib, mənəvi əhəmiyyət daşıyan məqama keçid alaq. Dövlətimizin başçısı vurğulayıb ki, İkinci Qarabağ müharibəsində qalib gəlmək həyatının, o cümlədən, siyasi həyatının missiyası idi və həmin missiya uğurla başa çatdı. Qarabağ erməniləri, eləcə də Ermənistan rəhbərliyi əmin olmalıdırlar ki, bu qalibiyyət missiyası heç bir halda avantürizmə meydan tanımayacaqdır. Bunu cənab İlham Əliyev aşağıdakı fikirlərində də vurğulayır. "Biz müharibədə qalib gəldik. Biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik".

*

Nəhayət, sonuncu vacib məqama keçid alaq. Bəli, Azərbaycanın liderinin vurğuladığı kimi, Qarabağ erməniləri seçim etməlidirlər. Həm də ona görə ki, Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıları olsa da, həmin ermənilərin ömür sürdükləri ölkənin adı Azərbaycandır: "… onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına, yoxsa Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər".

***"Xalq qəzeti"nin analitik qrupu***

# Azərbaycan – Türkiyə əməkdaşlığı yeni çağırışlar fonunda

(əvvəli 1-ci səhifədə)

Çox təəssüf ki, belə bir məqamda bəzi ölkələr türk dünyasına qarşı olan bəd niyyətlərin reallaşdırılması üçün Ermənistandan bir alət kimi istifadə edirlər. Daha bir təəssüf ondan ibarətdir ki, İrəvan rəhbərliyi heç bir cəhdin və ya çapalamanın səmərə verməyəcəyini anlasa da, xaricdən gələn tapşırıqların icrasından imtina edə bilmir. Anlayırlar ki, 44 günlük İkinci Qarabağ müharibəsində darmadağın edilmiş Ermənistan ordusunu hələ 20-25 ilə bərpa etmək mümkün deyil. Ancaq neyləsinlər, Parisdən, Moskvadan, Tehrandan gələn sifarişləri yerinə yetirmək məcburiyyətindədirlər. Yəni Türk dünyası bu gün təkcə oyuncağa çevrilmiş Ermənistanla deyil, onların himayədarları ilə də üz-üzədir.

Bütün bunlara baxmayaraq, tarixin çox qədim qatlarından bugünümüzə qədər gələn türk karvanı heç bir səsə məhəl qoymadan öz yolu ilə gedir. Nə xoşdur ki, bu karvanın sarvanları arasında son 20 ildə Türkiyəni dünyanın əsas söz sahiblərindən birinə çevirmiş böyük strateq Rəcəb Tayyib Ərdoğan, Türk dünyasında qalib lider və müzəffər Ali Baş Komandan kimi tanınan İlham Əliyev və digər türk dövlətlərinin rəhbərləri də var. Yəni biz öz tarixi funksiyamızı məharətlə və uğurla icra edirik. Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun iyulun son günündə qardaş ölkəyə səfəri və apardığı danışıqlar da məhz həmin missiyanın tərkib hissələrindəndir.

Ceyhun Bayramovun Ankara səfərini əlamətdar edən əsas faktlardan biri də odur ki, ölkəmizin baş diplomatı səfər çərçivəsində təkcə öz həmkarı ilə görüşməmiş, qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan da onu qəbul edərək, gündəlikdəki məsələlərə öz münasibətini bildirmişdir. Bu görüş haqqında olan məlumatda bildirilir ki, nazirimizin cənab Prezidentlə görüşündə ikitərəfli və çoxtərəfli münasibətlər, həmçinin regionda və dünyada baş verən hadisələr ətrafında fikir mübadiləsi aparılıb. Cənab Rəcəb Tayyib Ərdoğan və Ceyhun Bayramov, həmçinin Azərbaycan–Ermənistan arasında münasibətlərin normallaşması prosesinin gedişatı barədə də fikir mübadiləsi aparıblar.

Bundan başqa, məlumat verilir ki, Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov, Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Türkiyə Prezidentinin baş müşaviri Akif Çağatay Kılıçla da görüşüb. Görüşdə iki ölkə arasında mövcud əməkdaşlıq, habelə regionda cari vəziyyət ətrafında müzakirələr aparılıb. Müzakirələr zamanı Şuşa Bəyannaməsinə əsaslanan müttəfiqlik əlaqələrinin və regional formatlar çərçivəsində əməkdaşlıqdan məmnunluq ifadə olunub, beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində birgə səylərin daha da genişləndirilməsinin zəruriliyi vurğulanıb.

Təbii ki, gündəlikdəki əsas məsələlərdən biri də İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar və Azərbaycan tərəfindən sülh gündəliyinin irəli sürülməsi ilə bölgədə regional əməkdaşlıq üçün imkanların yaranması olub. Eləcə də, kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılmasının zəruri olduğu vurğulanıb.

Ceyhun Bayramov, 44 günlük İkinci Qarabağ müharibəsinin bütün anlarında Azərbaycanın yanında olmuş Türkiyənin dövlət rəsmilərinə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə zidd olaraq davam etdirdiyi hərbi-siyasi təxribatlar barədə ətraflı məlumat verib. Bölgədə sülh və sabitliyin bərqərar olması üçün Ermənistanın ölkəmizin ərazisindən qanunsuz silahlı birləşmələrini çıxarmasının və təhrikçi addımlardan çəkinməsinin zəruri olduğunu bildirib. Təbii ki, baş müşavir iki ölkə arasında qardaşlıq və dostluq əlaqələrinin davam etdirilməsinin hər iki ölkənin, o cümlədən regionun inkişafına və təhlükəsizliyinə töhfə verdiyini bildirib.

Bu səfəri uğurlu edən başqa bir fakt isə Ceyhun Bayramovun Türkiyənin yeni Xarici işlər naziri Hakan Fidanla görüşərək, regiondakı vəziyyəti müzakirə etməsi oldu. Maraqlıdır ki, bu görüşlə bağlı məlumatları təkcə Azərbaycan və Türkiyə mətbuatı deyil, Ermənistan mətbuatı da ən incə məqamlarına qədər paylaşıb və müvafiq şərhlər verib. Erməni ekspertlər Ankara görüşü barədə dediklərini tam əsaslandırmaq üçün cənab Hakan Fidanın mətbuat konfransında söylədiyi fikirləri məhz olduğu kimi təqdim edirlər. Məsələn, "Aysor.am" erməni xəbər portalı cənab Hakan Fidana istinad edərək yazır: "Bilirsinizmi, Laçın yolu Azərbaycanın ərazisidir. Ona görə də Azərbaycan həmin ərazidə lazım bildiyi bütün tədbirləri həyata keçirir və bunlar Azərbaycanın suveren hüquqlarıdır".

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

# Beynəlxalq hüququ ayaqlar altına atmayın, cənablar!

## Vaqif Xaçatryanın cinayət məsuliyyətinə cəlb olunması erməni hüquq müdafiəçilərini bərk narahat edib

(əvvəli 1-ci səhifədə)

Baş vermiş hadisənin qəribə tərəfi odur ki, beynəlxalq təşkilatların boynuna düşən və görməli olduqları işi yenə də Azərbaycan özü yerinə yetirir. 44 günlük müharibədə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı dörd qətnaməsinin icrasını təmin etdiyi kimi, beş gün əvvəl İnterpolun əvəzinə bu öhdəliyi də icra etdi. Meşəli kəndində soyqırımı törətmiş hərbi cinayətkar Laçın yolunda ölkədən qaçarkən saxlanıldı. Bu fakt həm də ondan xəbər verir ki, Xaçatryan kimi axtarış siyahısında olan yüzlərlə erməni hələ də Qarabağımızda yaşamaqda davam edir. Xankəndidəki daşnak-revanşist separatçı rejim və İrəvan iqtidarı onları hər vəchlə himayə edir, beynəlxalq təşkilatlar isə nəinki bu vandalizmə göz yumur, hətta onların müdafiəsinə qalxır. Hüququn ayaqlar altına atılması belə olur...

### Məhkəmə hökmləri icrasını gözləyir

"44 günlük Vətən müharibəsindən sonra tarixi və hüquqi baxımdan bir sıra hadisələr baş verib. Azərbaycan Respublikasının cinayət mühakimə icraatında vətəndaşlarımıza qarşı, insanlıq əleyhinə müharibə cinayətləri törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb olundu və onların barəsində qanuni qüvvəyə minmiş məhkəmə hökmləri qəbul edildi". Bu sözləri Baş Prokurorluğun idarə rəisi Mahir Abbasov mediaya açıqlamasında söyləyib. M.Abbasov bildirib ki, Meşəli hadisələri ilə bağlı saxlanılan Vaqif Xaçatryanın cinayət məsuliyyətinə cəlb edilməsi beynəlxalq və milli hüquq normalarına tamamilə uyğundur: "Bu təcrübə Azərbaycan Respublikasının cinayət mühakimə icraatında mövcuddur. Qüvvədə olan cinayət qanunvericiliyinə əsasən, cinayət məsuliyyətinə cəlbetmə müddəti insanlıq əleyhinə, hərbi, soyqırımı cinayətlərinə şamil edilmir".

Yəni, beynəlxalq hüququn qaydalarına əsasən, 22, 32, yaxud 52 il əvvəl törədilməsindən asılı olmayaraq, insanlıq əleyhinə törədilən hərbi cinayət mütləq məsuliyyətə cəlb edilməlidir. Müharibə cinayəti törətmiş şəxslərin mühakiməsi üçün müddət tətbiq olunmur və onlar mütləq qaydada məsuliyyətə cəlb olunurlar. 1991-ci ildə 25 soydaşımızın qətlə yetirildiyi, 14 nəfərin yaralandığı Meşəli faciəsini törədənlərdən biri, hərbi cinayətkar Vaqif Xaçatryan barəsində Azərbaycan Cinayət Məcəlləsinin 103-cü və 107-ci maddələri ilə cinayət işi açılıb. Onun 32 il əvvəl törətdiyi hərbi cinayətləri yerli qanunvericiliklə yanaşı, beynəlxalq konvensiyaların da kobud şəkildə pozulması deməkdir.

V.Xaçatryanın da üzvü olduğu cinayətkar dəstənin milli-etnik və dini zəmində törətdiyi əməlləri 1948-ci il 9 dekabr tarixli "Soyqırımı cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın, 1948-ci il 10 dekabr tarixli "İnsan hüquqları haqqında" Ümumi Bəyannamənin, eləcə də 1966-cı il 10 dekabr tarixli "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın pozulmasıdır. Həmin beynəlxalq normalar bu cür əməlləri törədənlərin cəzalandırılmasını tələb edir. "Soyqırımı cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 6-cı maddəsində qeyd olunur ki, soyqırımı və yaxud 3-cü maddədə sadalanan digər əməlləri törətmiş şəxslər bu əməlin törədildiyi dövlətin ərazisində səlahiyyətli məhkəmələr tərəfindən və ya yurisdiksiyasını Konvensiya tərəflərinin də qəbul etdiyi və tərəflərə şamil olunan beynəlxalq cinayət məhkəməsi tərəfindən mühakimə olunmalıdırlar. Bütün hallarda cinayət sübut olunmalı, cinayətkar cəzasını çəkməlidir.

### Gec də olsa ədalət zəfər çalır

Azərbaycan xalqı bu günləri çoxdan gözləyirdi. Qarabağda insanlıqla bir araya sığmayan cinayətlər törətmiş şəxslərin müəyyənləşdirilməsi, onların hüquqi məsuliyyətə cəlb edilməsi tək Femidanın yox, həm də tarixin hökmüdür. Otuz ilə yaxın davam edən işğal zamanı minlərlə soydaşımız qətlə yetirilmiş, ağır işgəncələrə məruz qalmış, yüz minlərlə insan yurd-yuvasından didərgin düşmüşdür.

Haqq nazilər, amma üzülməz – deyiblər. Bütövlükdə, Ermənistan dövləti, onun başında duranlar, ayrı-ayrı şəxslər cinayət əməllərinə görə cavab verəcəklər. V.Xaçatryanın saxlanılması və həbsi həmin zərərdidələrin hüquqlarının qorunması, ədalətin bərpa olunması yönündə görülən "qisas" əməliyyatıdır.

Cinayət törətməkdə ittiham olunan, beynəlxalq axtarışa verilən şəxsin saxlanılmasına görə Ermənistan XİN-in bəyanatı həm də onları gözləyən qorxunun təzahürüdür. Törətdikləri ağır cinayətlərə görə ifşa olunmaq və cəzalandırılmaq xofunun.

İndi Xaçatryanın müdafiəsi üçün utanmadan beynəlxalq hüquqa "istinad" edən Hayastan minlərlə soydaşımızın vəhşicəsinə qətlinə rəvac verib. Dörd minə yaxın azərbaycanlının əsirlikdə qalmasında, itkin düşməsində iştirak edib. Bəs nədən bu zaman beynəlxalq hüquq yadlarına düşmürdü? Ermənistanın XİN məsələnin mahiyyətinə dəxli olmayan, hüquqi cəhətdən səbətsiz, manipulyativ bəyanat verməklə dünya ictimaiyyətinə, guya, Qarabağda yaşayan ermənilərin təhdid altında olduqları fikrini sırımağa çalışır. Şər-böhtandan yoğrulmuş bu yalanınız da əvvəlkilər tək baş tutmayacaq, heç kəs sizə inanmayacaq

İstər milli, istərsə də beynəlxalq hüququn tələbləri Azərbaycan dövlətinə təkcə Meşəlidə, Xocalıda deyil, eyni zamanda, Malıbəyli, Quşçular, Ağdaban, Ballıqaya, Başlıbel və digər yaşayış məntəqələrində xalqımıza qarşı ağır cinayətlərdə əli olan şəxsləri məsuliyyətə cəlb etmək imkanını verir. Bakı müharibə canilərini məsuliyyətə cəlb etməklə hüququn aliliyini, ədaləti bərpa edir və bu yöndə presedent formalaşdırır.

### Cəzasızlığa son qoyulacaq

Əgər vaxtında Meşəli qətliamını törədən cəlladlara münasibətdə zəruri hüquqi addımlar atılsaydı, onların məsuliyyətdən yayınmasına imkan verilməsəydi, beynəlxalq birlik ikili standartlardan deyil, ədalət prinsiplərindən çıxış etsəydi, sonra nə Xocalı soyqırımı, nə də başqa müharibə cinayətləri baş verərdi. Bu mənada Azərbaycan hökuməti soyqırımı canilərini məsuliyyətə cəlb etməklə, yeni qətliamlara, hərbi cinayətlərə zəmin yarada biləcək cəzasızlıq mühitini aradan qaldırır. Hazırda Azərbaycanın müvafiq strukturlarının həyata keçirdiyi hüquqi-prosessual tədbirlərə münasibətdə İrəvanın hər hansı bir formada etiraz etməyə ixtiyarı yoxdur. Ona görə ki, torpaqlarımızın işğal edildiyi, işğal altında olduğu və işğal rejiminin hərbi yolla saxlanmasına cəhdlərin göstərildiyi həmin dönəmdə etnik təmizləmə, soyqırımı və deportasiya cinayətləri də daxil olmaqla, təcavüzdən qaynaqlanan bütün növ cinayət əməllərinə görə məsuliyyət Hayastanın üzərinə düşür. Bundan savayı, İrəvanın boynunda Azərbaycan torpaqlarında törədilən müharibə cinayətlərinin təhrikçi, təşkilatçı və icraçılarını uzun illər cinayət məsuliyyətindən yayındırdığı üçün məsuliyyət yükü də var.

Əslində, rəsmi İrəvanın bir hərbi cinayətkarla bağlı qopardığı vay-şivən "dəhliz blokadası", "humanitar böhran", "karvan şousu" kimi Bakıya qarşı düşünülmüş ideoloji təxribatın tərkib hissəsidir. Özünün siyasi şantajına beynəlxalq qurumları da şərik etməyə çalışan haylar bununla heç nəyə nail ola bilməyəcəklərini özləri də anlamamış deyil. Hüquqi baxımdan dünyanın nə bir dövləti, nə də beynəlxalq təsisatı Azərbaycana mane ola bilər. Bizdən sadəcə sübutlar istənilə bilər. Həmin qatilin əməlləri ilə bağlı faktlar və şahid ifadələri isə yetərincədir. Bütün bunların əsasında Femida hələ çox xaçatryanların əməllərinə hüquqi qiymətini və hökmünü verəcək.

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***




### Ekspert rəyləri



**Fikrət SADIXOV, politoloq**

Xaçatryan Azərbaycan xalqına qarşı cinayət törədib. Bu cinayətin subut edən faktlar, o cümlədən canlı şahidlər var. Əldə olan videogörüntülər də deyilənləri təsdiq edir. Yəni bu cinayətkarın həbsi həm beynəlxalq hüquq normalarına, həm də Azərbaycanın Cinayət Məcəlləsinə uyğun şəkildə həyata keçirilib. Bununla bağlı kimlərsə hay-küy salmağa başlayıbsa, getsinlər beynəlxalq hüququn prinsiplərinə, müvafiq konvensiyaların şərtlərinə nəzər yetirsinlər.

Vaxtilə İsrail hökuməti İkinci dünya müharibəsi dövründə yəhudilərə qarşı cinayət törətmiş şəxsləri, nasistləri üçüncü ölkələrdən Tel-Əvivə gətirir və burada mühakimə edirdi. Ədalət məhkəməsi insanlığa qarşı cinayət törətmiş, müharibə canilərinin hamısı barədə hökm çıxarır, onları layiq olduqları cəzaya məhkum edirdi. Bu, beynəlxalq təcrübəyə tamamilə uyğun bir hüquqi prosesdir. Cinayət törətmisənsə, buna görə cavab verməlisən. Yox, əgər hesab edirlərsə ki, üstündən uzun illər keçəndən sonra Azərbaycan o dəhşətləri unudacaq, yanılırlar. Ortada cinayətkarların siyahısı var, hamısı beynəlxalq axtarışa verilib. Həmin hərbi canilərin "həmkarları", havadarları, onları təlimatlandıranlar da bunu unutmasınlar. Çünki növbədə onlardır...



**Fərid ŞƏFİYEV, beynəlxalq məsələlər üzrə ekspert**

Dünya təcrübəsinə nəzər yetirsək, soyqırımı, insanlığa qarşı, hərbi cinayətlərlə bağlı cinayətə cəlbetmə müddəti yoxdur. Adi cinayətlərdən söhbət gedirsə, orada on, iyirmi, otuz il var. Amma bu müddəa müharibə canilərinə şamil edilmir. Belə bir fakt da olmuşdu ki, hətta yüz bir yaşlı nasist cinayətkarı məhkəmə qarşısına çıxarmışdılar. Yəni insanlığa qarşı törədilən cinayətlərdə hüququ cəhətdən hansısa hədd yoxdur. Bəli, 1991-ci ildə baş vermiş cinayət hadisəsi istintaq araşdırmasına cəlb olunmalıdır. Meşəli kimi Xocalı, Başlıbel qətliamları da bizim hüquq-mühafizə orqanları tərəfindən araşdırılıb, törədilən cinayətlərin üstü açılıb, konkret adlar var. Səhv etmirəmsə, həmin siyahıda üç yüzdən çox cinayətkarın adı keçir.

Bəziləri iddia edir ki, həmin xəstə Xaçatryanı Qırmızı Xaç müalicəyə apardığına görə, guya, onu saxlamağa ixtiyarımız yox idi. Beynəlxalq Qırmızı Xaç Komitəsinə öz nəqliyyat vasitəsində cinayətkarı daşımasına heç kim səlahiyyət verməyib. Bəli, onlar bu hərəkəti bilməyərək ediblər. Sərhəddə yoxlanılıb, buna hüququmuz var və cinayətkar saxlanılıb. Beynəlxalq hüquq baxımından onu saxlamağa da, həbs etməyə də ixtiyarımız var.

Belə cinayətkarların amnistiyaya düşüb-düşməyəcəyi məsələsinə gələndə isə, bu humanist akt Xaçatryan kimi insanlığa qarşı cinayət, soyqırımı törədənlərə deyil, adi cinayətkarlara tətbiq edilə bilər. Yəqin bu proses reinteqrasiya prosesi çərçivəsində öz həllini tapacaq.

# ABŞ-nin kompromis məntiqi: İrəvan iki çətin yoldan birini seçməlidir

## Azərbaycanın güzəşti Ermənistana düşünməyə vaxt verməsidir

(əvvəli 1-ci səhifədə)

Nəzərə alaq ki, bu tənzimləmə xəttini daim gözdən salmaq istəyən qüvvə var. Söhbət Rusiyadan gedir. Yeri gəlmişkən, RF Xarici işlər naziri Sergey Lavrov iyulun 25-də Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında Moskvada keçirilmiş görüşdən sonrakı bəyanatında Qərbin vasitəçiliyini qeyri-ciddi saydığını bildirmişdi. Onun sözlərindən belə çıxır ki, bu nizamlama xətti sülh müqaviləsi ilə əlaqədar pafoslu təqdimatlardan başqa bir şey deyil.

Digər tərəfdən, düşünsək ki, ABŞ hər bir halda kollektiv Qərb tənzimləməsində yer alan tərəfdir. O zaman onun mövcud müstəvidəki uğursuzluğu, bütövlükdə, Qərbin uğursuzluğu anlamına gələcək. Üstəlik, Azərbaycan Prezidenti İlham Əliyevin qənaətini də bölüşməliyik. Dövlətimizin başçısı iyulun 21-23-də keçirilmiş Şuşa Qlobal Media Forumundakı çıxışında Azərbaycan-Ermənistan münasibətlərinin tənzimləməsi üzrə iki qlobal xətti fərqləndirmişdi – ABŞ və Rusiya. Əlbəttə, bu bölgüdən Fransanın ənənəvi vasitəçilik ampluasından çıxdığı uzaqlaşdı(rıldı)ğı görünür. Eyni zamanda, yada salaq ki, Prezident Əliyev Şuşadakı məlum çıxışında Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyini, bir növ, əlavə mexanizm qismində dəyərləndirmişdi. Deməli, indiki halda ABŞ-nin öz missiyasının üzərində daha çox əsməsi tam labüddür.

Qayıdaq yenidən Millerin açıqlamasına. Əslində, sözçü hər şeyi deyir, eyni zamanda, heç nəyi demirmiş kimi təsir bağışlamaqdadır. Tərəflərin kompromisə getməli olduğuna dair onun fikirlərinin də üzərində məhz bu baxımdan xüsusi dayanılmalıdır. Sual yaranır: Tərəflər dedikdə, konkret hansı tərəf nəzərdə tutulur? Azərbaycanın mövqeyi məlumdur. Ermənistanın isə mövqesizliyi.

Bakı özünün qanuni ərazilərində hüquqi hakimiyyətini təmin etmək istəyir. İrəvan isə Qarabağ ermənilərinə fokuslanaraq, onlarla bağlı hansısa hüquqlara yiyələnməyi düşünür və bunun gələcək sülh müqaviləsində əksini tapmasına cidd-cəhd göstərir. Bu gün də Ermənistanın Laçında Azərbaycanın qurduğu sərhəd nəzarət-buraxılış məntəqəsi ətrafında çıxardığı oyunlar bu cəhdin reallaşmasına hesablanıb. O cümlədən, Qarabağda humanitar böhranın yaşanmasına dair qaldırdığı hay-küy də.

Əlbəttə, böyük anlamda hazırkı status-kvonun saxlanılmasına çalışan Ermənistan baş naziri Nikol Paşinyan və onun administrasiyası yaxşı anlayır ki, Azərbaycan öz mövqeyindən geri çəkilməyəcək. Yəni, sülh müqaviləsində Qarabağla Ermənistanın hansısa bağının olduğuna dair müddəanın yer almasına razılıq verməyəcək. Düşünülə bilər ki, sülh müqaviləsi də olmayacaq. Belədə Millerin haqqında söz açdığı kompromislər əhəmiyyətini itirmiş kimi görünəcək. Ancaq...

Bu gün Azərbaycan Qarabağdakı separatçılıq çənbərini daraldır. Əslində, ABŞ də yaxşı görür ki, bu, ölkəmizin suveren haqqıdır. Ermənistanın mövqeyi heç bir haqqa əsaslanmır. İrəvan yalnız avantürizmə güc verməkdədir. Beynəlxalq ictimaiyyət isə özünün ikili standartlar mərəzindədir. Hazırda bu mərəzin ayrı-ayrı qütblərinin Azərbaycan-Ermənistan münasibətləri kontekstində səsləndirdiyi anti-Azərbaycan baxışlar eyni mənfur siyasətin tərkib hissəsi kimi diqqət çəkməkdədir və prinsip etibarilə erməni avantürizminə xidmət məqsədini güdür. Əlbəttə, Birləşmiş Ştatlar vasitəçi kimi həmin baxışlara əhəmiyyət vermədiyi üçün, Miller kompromis məntiqindən çıxış edir. Yəni, ABŞ-nin bu məntiqi Ermənistan üçün keçərlidir. Məsələnin Azərbaycana isə aidiyyatı yoxdur.

Bəli, ölkəmizin kompromisə getməyəcəyi həm də Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ-nin Dövlət katibi Antoni Blinken arasında iyulun 29-da baş tutmuş telefon danışığının məzmunundan da aydın görünməkdədir. Azərbaycanla Ermənistan arasında sülh prosesi üzrə danışıqların və bölgədə son vəziyyətin müzakirə olunduğu telefon təmasında dövlətimizin başçısı Ermənistanın atdığı təxribatçı addımların sülh prosesinə maneçilik törətdiyini bildirib, vurğulayıb ki, ölkənin silahlı qüvvələri Azərbaycanın suveren ərazisində qanunsuz olaraq qalmaqda davam edir ki, bu isə bölgədə hərbi gərginlik mənbəyidir.

Göründüyü kimi, Prezident İlham Əliyev ABŞ-nin ali rəsmisinin diqqətinə Ermənistanın hazırkı sülh xəttinə aşkar etinasızlığını çatdırır. Belə olan halda Millerin haqqında söz açdığı kompromisin predmeti Bakı ola bilərmi? Əsla yox! Həm də ona görə ola bilməz ki, Qarabağda qanunsuz erməni silahlı birləşmələri



qalırsa, Laçın dəhlizindən maneəsiz gediş-gəliş həmin birləşmələrin varlığının təminatı baxımından nəfəslikdir.

Deməli, indiki halda, həqiqətən, Qarabağ ermənilərinin taleyini düşünənlər varsa, belələrinin səmimi davranmaları şərtdir. Yəni, məsələn, Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç insan həyatlarının qlobal siyasət üçün rıçaq olmamasını bildirərkən, bölgədə – Azərbaycanın Avropa Şurası tərəfindən qəbul edilmiş ərazilərində erməni hərbçilərinin mövcudluğu amilini mütləq şəkildə düşünməlidir. Düşünmürsə, birmənalı qaydada səmimi deyil. Qarabağ ermənilərinin həyatlarını ağırlaşdıran da elə bu səmimiyyətsizlikdir. Görünür, Birləşmiş Ştatlar Administrasiyası bacardığı qədər qeyri-səmimi davranmamağa üstünlük verir və Millerin açıqlaması da fikrimizin sübutudur.

Azərbaycan Prezidenti ilə ABŞ-nin Dövlət katibi arasındakı telefon danışığındakı bir məqamı da nəzərə alaq. Dövlətimizin başçısı ölkəmizin hazırkı prinsipial xəttinə sadiqliyini vurğulayarkən, Ermənistanın Laçın dövlət sərhədindən keçid məntəqəsində hərbi təxribat törətməsini, sərhədçilərimizi atəşə tutmasını, qaçaqmalçılığa cəhd göstərməsini, icazəsiz yük avtomobillərini Azərbaycana göndərməsini qeyd edib. Bu da kompromisizliyin bir təzahürü. Yəni, kimlərsə hesab edirsə ki, biz yuxarıda sadalananlara icazə verəcəyik, yanılır. Ümid edək ki, Millerin şəxsində Birləşmiş Ştatlar Administrasiyası yanılan tərəf deyil...

Digər yandan, Prezident İlham Əliyev cənab Blinkenə onu da bildirmişdi ki, Azərbaycanın erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadə etməklə bağlı təklif irəli sürməsinə və bunun Avropa İttifaqı, Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənməsinə baxmayaraq, Ermənistan bütün təkliflərə qarşı çıxıb. Erməni tərəfinin "Humanitar vəziyyət" və "blokada" ilə bağlı iddiaları isə siyasi manipulyasiyadır. Deməli, Birləşmiş Ştatlar nəzərə almalıdır və alır ki, Azərbaycan siyasi manipulyasiyaların reallaşması üçün güzəştə gedə bilməz.

Ən əsası isə ölkəmizin başçısı telefon danışığı zamanı Ermənistanın davamlı şəkildə pozucu fəaliyyət göstərərək, sülh danışıqlarına, eləcə də Azərbaycan və yerli erməni sakinlər arasında təmas və dialoqun inkişafına maneçilik törətməyə çalışdığını vurğuladı və bunun qəbuledilməzliyini diqqətə çatdırdı. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan erməni sakinlərin reinteqrasiyası istiqamətində qərarlıdır. Bu məqsədlə Xocalıda bir görüş keçirilib, lakin Bakının ikinci görüşlə bağlı təklifi isə qəbul edilməyib.

Məlum olduğu kimi, Qarabağ ermənilərinə Azərbaycanın humanitar yardımlar çatdırması ilə bağlı məsələ ilk dəfə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin iyulun 15-də Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə keçirilmiş üçtərəfli görüşünün yekunlarına dair açıqlamasında əksini tapmışdı. Məsələnin Ermənistan cəmiyyətində necə böyük hay-küy doğurduğu da məlum həqiqətdir.

Əlbəttə, bu baxımdan Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun açıqlamasını nisbətən konstruktiv saymaq mümkündür. Hərçənd, Lavrov fikirlərini birbaşa Ağdam-Əsgəran yolunun vacibliyi kontekstində bildirməmiş, sadəcə demişdi ki, Ermənistan Qarabağ ermənilərini Azərbaycanla dialoqa razı salmalıdır.

Millerin dünənki açıqlamasındakı kompromis məntiqini nəzərə alsaq, İrəvanın ən böyük kompromisi elə bu olmalıdır. Əlbəttə, ölkəmiz Rusiyanın dialoq məntiqini deyil, Qarabağın erməni icması ilə danışıqları əsas götürür. Azərbaycan Qarabağ ermənilərini tərəf qismində görmür. Həm də ona görə ki, belə yanaşma separatçılığa meydan vermək deməkdir. Bakı Qarabağdakı separatçılığın bütün elementlərinə qarşı barışmazdır. Vaqif Xaçatryan adlı caninin həbsi də bunun təsdiqidir...

Sonda onu da deyək ki, Antoni Blinken Prezident İlham Əliyevlə telefon danışığında ABŞ-nin Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edərək, Laçın dövlət sərhədindən buraxılış məntəqəsi və digər alternativ yollar vasitəsilə keçidin önəminə, danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunmuşdu. Burada üzərində dayanılmalı məqam "digər alternativ yollar"dır.

Deməli, Mişelin açıqlamasındakı məntiq Blinken üçün də keçərlidir. Bu da o deməkdir ki, Millerin təmsil olunduğu administrasiyanın nəzərdə tutduğu kompromis məntiqinin Azərbaycana aidiyyatı yoxdur. Bir daha vurğulayaq ki, güzəştə getməli olan tərəf Ermənistandır. Hətta onu da vurğulayaq ki, indiki halda ölkə üçün ən sərfəlisi elə güzəştdir. Yoxsa, ona daha çətin olacaq. Yeri gəlmişkən, Miller də kompromislərin çətinliyindən söz açmışdı. Hər halda, çətin anlardansa çətin kompromislər yaxşıdır. İrəvan iki çətindən birini seçməyə tələsməlidir.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Rusiya Müdafiə Nazirliyi toponimlərimizi nə vaxtadək təhrif edəcək?

**Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbə, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Ermənistanla Azərbaycan arasında 30 ilə yaxın mövcud olmuş silahlı münaqişəyə son qoyub. Prezident İlham Əliyevin həmin gecə Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi, 10 noyabr ölkəmiz üçün tarixi bir gündür. Dövlət başçımız bildirib ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaq.**



Ölkəmizin qazandığı tarixi zəfər təkcə münaqişəni həll etməyib, həm də "Dağlıq Qarabağ" sözünün tarixin arxivinə göndərilməsi ilə nəticələnib. Laçın rayonunun işğaldan azad olunması münasibətilə 2020-ci ilin dekabrın 1-də xalqa müraciət edən Prezident İlham Əliyev bu istiqamətdə də öz fikirlərini doğma xalqı ilə bölüşüb. Cənab İlham Əliyev deyib: "Bir daha demək istəyirəm ki, artıq "Dağlıq Qarabağ münaqişəsi" termini arxada qalıb. Məsləhət görmürəm ki, bu termin artıq dillərdə olsun. Ancaq tarix haqqında danışanda, əlbəttə ki, bu termindən istifadə etmək olar".

Ümumiyyətlə, biz tarixə boylandıqda orada "Dağlıq Qarabağ" terminini görə bilmirik. "Azərbaycanfilm" kinostudiyasının 1985-ci ildə istehsal etdiyi "Qanlı zəmi" bədii filmində xalq qəhrəmanı Qaçaq Nəbinin dediyi məşhur sözlər var: "Arazın o tayı da, bu tayı da mənim doğma el-obamdır. Elin də o başı, bu başı olmaz. Bunu sırğa elə, as qulağından". Həmin sözləri bir qədər dəyişərək deyə bilərik ki, Vətəni arana, dağa, aşağıya, yuxarıya bölmək olmaz. Vətən elə Vətəndir. Qarabağın dağı da, aranı da Vətəndir.

"Dağlıq Qarabağ" termini siyasi dövriyyəyə bolşeviklər tərəfindən daxil edilib. 1923-cü ilin iyulun 7-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə ölkəmizin tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. Muxtar vilayət bu bölgəyə Rusiya imperiyasının 1828-ci ildə imzalanmış Türkmənçay sülh müqaviləsindən sonra İrandan, Yaxın Şərqin digər yerlərindən köçürdüyü ermənilər üçün qurulub. DQMV-nin inzibati sərhədləri elə cızılıb ki, orada mümkün qədər çox erməni yaşamış olsun. Bu vilayətin yaradılması Azərbaycan dövlətinin altına qoyulmuş mina idi. Bu mina nə vaxtsa işə düşməli idi. Onun işə düşməsi 1987-ci ilin noyabrın 18-də Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri, SSRİ Elmlər Akademiyasının akademiki Abel Aqanbekyanın Fransanın "Humanite" qəzetində dərc olunan müsahibəsi ilə başlayıb. Həmin müsahibədə başabəla müşavir-akademik deyib: "Mən Qarabağın Ermənistanın tərkibində olmasını istəyirəm. Bir iqtisadçı kimi hesab edirəm ki, Qarabağ iqtisadi cəhətdən Ermənistanla daha çox bağlıdır, nəinki Azərbaycanla".

Separatçı DQMV-nin varlığına Azərbaycan Ali Sovetinin 1991-ci ilin 26 noyabr tarixli qərarı ilə son qoyulub. Həmin gün Ali Sovet DQMV-nin ləğv olunması barədə qərar qəbul edib. Vilayətin ərazisi Yuxarı Qarabağ iqtisadi rayonunun tərkibinə daxil edilib. Təxminən, 30 ilə yaxın bu ərazilər Yuxarı Qarabağ iqtisadi rayonunun tərkibində olub. Ermənistan üzərində qələbə çaldıqdan sonra işğaldan azad edilmiş ərazilərin yeni bölgüsünün yaradılması zərurəti meydana çıxıb. Dövlər başçımızın Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında 2021-ci ilin 7 iyul tarixli fərmanına əsasən, işğaldan azad edilmiş ərazilər iki iqtisadi rayonun – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tərkibinə daxil edilib. Hazırda Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları, Şərqi Zəngəzur iqtisadi rayonuna isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları daxildir. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında fərman əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının DQMV-nin yaradılmasının 98-ci ildönümü günündə yaradılması da, zənnimizcə, təsadüfi sayılmamalıdır.

Azərbaycanın "Dağlıq Qarabağ" terminini siyasi dövriyyədən çıxarmaq istəyi həm də Qarabağ ermənilərinin reinteqrasiyasına hesablanıb. Ölkəmiz bununla Qarabağ ermənilərinə və bölgədə separatizm ocağını yenidən alovlandırmaq istəyən yaxın-uzaq xaricdəki müxtəlif qüvvələrə subliminal mesaj verir. Qarabağın vahid, bölünməz, onun dağı və aranı ilə birgə Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu diqqətə çatdırır.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın bu istiqamətdəki səyləri nəticə verməkdədir. Məsələn, iyulun 25-də Moskvada Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündən öncə baş vermiş olay bunun göstəricisi hesab oluna bilər. Belə ki, köməkçisi Rusiya XİN başçısının qulağına "keçmiş DQMV" termininin istifadəsinin azərbaycanlıların xoşuna gəlməyəcəyini pıçıldayır. Mikrofon açıq qaldığı üçün köməkçinin Sergey Lavrova pıçıldadığı sözlər aydın eşidilir. Bundan sonra Lavrov cəld mikrofonu söndürür. Maraqlıdır ki, Rusiya XİN başçısı görüş zamanı bir dəfə də olsun nəinki "keçmiş DQMV", ümumiyyətə, Dağlıq Qarabağ sözlərindən istifadə etməyib.

Buna baxmayaraq, Rusiya Müdafiə Nazirliyi "Dağlıq Qarabağ" termininin istifadəsindən əl çəkmir. Eyni zamanda, Qarabağdakı yer adlarının gerçək, yəni Azərbaycan variantını tələffüz etməkdən də bugünədək yayınır. Rusiya sülhməramlı kontingentinin gündəlik bülletenlərində Xankəndi əvəzinə "Stepanakert", Xocalı əvəzinə "İvanyan", Xocavənd əvəzinə "Martuni" sözləri işlədilir.

Burada bir maraqlı məqam da var. Məlumdur ki, erməni silahlı birləşmələri Azərbaycanın keçmiş DQMV-yə daxil olmayan rayonlarını da işğal etmişdilər. Onlar işğal müddəti ərzində əvvəllər heç vaxt yaşamadıqları Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Ağdam, Kəlbəcər və Laçın rayonlarının adlarına da erməni yarlığı yapışdırıblar. Məsələn, haylar Laçın şəhərinə "Berdzor", Laçın rayonuna isə "Kaşataq" deyirlər. İndi Rusiya Müdafiə Nazirliyinin də heç bir hüquqi qüvvəsi, tarixi dayaqları olmayan bu sözlərdən istifadə etməsi heç bir çərçivəyə sığışmır.

Bundan əlavə, Rusiya sülhməramlı kontingentinin Xocalı qəsəbəsində yerləşən qərargahında Rusiya və Ermənistan dövlət bayraqları ilə yanaşı, oyuncaq rejimin əski parçası da "dalğalanır". Heç bir dövlətin, hətta Ermənistanın da işğal dövründə tanımağa cürət etmədiyi, bu gün isə Azərbaycanın ərazisi olduğunu bəyan etdiyi Qarabağda Rusiya bayrağı ilə yanaşı, hansısa parçanın dalğalanması Azərbaycanın suverenliyinə hörmətsizlik, Rusiya adına isə utancdır. Nəzərə almaq lazımdır ki, Rusiya Qarabağ üzərində Azərbaycanın suverenliyini tanıyıb. Bu baxımdan Rusiya sülhməramlı kontingenti Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşmalı, uzun müddətdir yol verdiyi bu təhrifi aradan qaldırmalı və gündəlik bülletenlərində, nəhayət, düzəliş etməlidir.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**



– Bu məsələ dəfələrlə gündəmə gəlib. Bir müddət bundan öncə sülhməramlıların, guya, xəritələrində dəyişiklik etməsinə dair məlumat yayılmışdı. Rusiya tərəfi bunu onlarda olan xəritələrin 1975-cü ildə hazırlanmış xəritələr olması ilə əsaslandırmağa çalışır. Rusiya Müdafiə Nazirliyi, nazirliyin məsul şəxsləri şifahi nitqlərində və yazılı açıqlamalarında Azərbaycan dövlətinə hörmət etməli, ölkəmizin bununla bağlı mövqeyini öyrənməli və bu mövqedən çıxış etməlidirlər. Bunlar Rusiyanın hansısa ərazi vahidi deyil. Azərbaycana aid yaşayış məntəqələridir. Rusiya özü də Qarabağ üzərində Azərbaycanın suverenliyini tanıyıb. Belə olan təqdirdə Azərbaycan hansı toponimlərdən istifadə edirsə, Rusiyada da əlaqədar qurumlar həmin toponimlərdən istifadə etməlidirlər.

Bununla əlaqədar olaraq Rusiyaya dəfələrlə irad tutulub. Onların Müdafiə Nazirliyinə, sülhməramlıların komandanlığına müraciətlər olunub. Ola bilsin ki, onlar bununla Rusiyanın burada hansısa təsirə malik olduğunu göstərmək istəyirlər. Azərbaycan Müdafiə Nazirliyi dəfələrlə qarşı tərəfə təklif edib ki, bizdə olan gerçək toponimiyaların olduğu xəritələri sizə təqdim edək və sair. Ancaq onlar hələ də bu düzəlişi etməkdən boyun qaçırırlar.

Gəlin, açıq danışaq. Rusiyanın mövqeyi bizə aydındır. Üçtərəfli bəyanatın təsir mexanizminə malik tərəfi olaraq Rusiya həmin bəyanatın müddəalarının yerinə yetirilməməsinə göz yumur. Qarabağdakı qanunsuz erməni hərbi birləşmələrinin çıxarılmaması, əksinə silahlandırılması, qanunsuz postların yaradılması kimi hallar baş verir. Bu siyahını uzatmaq da olar. Bunlar sülhməramlı missiyaya olmayan və ona zidd yanaşmadır. Belə olan təqdirdə Rusiyanın Müdafiə Nazirliyi səviyyəsində toponimlərdə təhrifə yol verilməsi zəncirin bir halqasıdır. Düşünürəm ki, Azərbaycan hökuməti, nəhayət Rusiya tərəfinə haqlı iradını bildirməlidir.



# Dövlət əhəmiyyətli xüsusi tapşırıq

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə onun Naxçıvanın müdafiəsində gördüyü əzəmətli işləri xalqımızın nəzərinə çatdırmaq üçün keçmiş xatirələrimi oxucularla bölüşmək qərarına gəldim. 1992-ci ilin əvvəlindən sentyabr ayına qədər yaşanmış gerçək hadisələr ilk dəfə olaraq qısa şəkildə bu məqaləmdə öz əksini tapır. Mən müstəqillik tariximizin çətin bir dövründə yurd naminə verilən ağır tapşırıqların yerinə yetirilməsində əməyi olan bütün insanları minnətdarlıqla xatırlayıram. Öz həyatını Azərbaycan xalqının xoşbəxt və çox parlaq gələcəyi naminə şam kimi yandıran ulu öndərimizə Allahdan rəhmət diləyirəm.**

XX əsrin əvvəli və sonu tariximizin səhifələrində qızıl hərflərlə qan yaddaşımıza həkk olunmuşdur. Şərqdə ilk Demokratik Cumhuriyyət Azərbaycanda qurulmuş və 23 ay fəaliyyət göstərmişdi. İllər keçsə də, ötən əsrin sonunda Azərbaycan xalqı müstəqillik bayrağını yenidən qaldırmış, oğulları Vətən yolunda canlarını fəda etmişlər. Hər dəfə düşmənlərimiz fürsətdən istifadə edərək torpaqlarımızın bir qismini, sonuncu dəfə isə 20 faizini işğal etmişdi. Xalqımız dəfələrlə soyqırımına məruz qalmışdı. Müstəqilliyimiz Vətən övladlarının qanı bahasına qazanılmışdı...

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımız da bu hadisələrdən kənarda qalmamışdı. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqillik atributları Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul edilmişdir. Beləliklə, Azərbaycanın müstəqilliyinin əsasları Naxçıvanda qoyulmuşdu. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə muxtar respublikanın erməni təcavüzündən 32 il bundan əvvəl qorunması ilə bağlı dövlət əhəmiyyətli xüsusi tapşırıq, gerçək hadisələr rəsmi sənədlərlə bu məqalədə ilk dəfə əksini tapır.

...Heydər Əliyev çox qayğılı görünürdü. Kabineti soyuq idi. Mənimlə səmimi görüşüb oturmaq üçün yer göstərdi. Ümumi söhbətdən sonra mənə məlum oldu ki, 1986-cı ildə xüsusi təyinatlı (“QRU”) zabit kimi, Əfqanıstana göndərilmək üçün seçildiyimdən də xəbəri var. Naxçıvanda olan ağır iqtisadi durumdan və erməni təhlükəsindən ətraflı danışaraq mətləbə keçdi. Naxçıvan MR ərazi bütövlüyünü, əhalisinin təhlükəsizliyini təmin etmək üçün mənə dövlət əhəmiyyətli xüsusi tapşırıq verdiyini, eyni zamanda, özünün hərbi səlahiyyətli nümayəndəsi elan etdiyini bildirdi...

Naxçıvan Sovet İttifaqının tərkibindən çıxan ilk muxtar qurum idi. Müstəqillik yolunda ilk şəhidlərimizi də vermişdik. Düşmən daha çox şey istəyirdi. Ərzaq qıtlığı hiss olunurdu, çörək üçün növbələr yaranmışdı. Ən qəribəsi o idi ki, çox ucuz qiymətlərə şəhərə Avropada istehsal olan Rusiya araqları daxil olurdu...

Heydər Əliyev qısa zamanda İran İslam Respublikası ilə gömrük keçid məntəqələrinin açılmasına nail oldu. Türkiyə ilə Naxçıvan arasında “Ümid körpüsü”nün tikintisi gedərkən mühüm bir əməliyyat xəbəri almışdıq. Körpüdə partlayış törədiləcəkdi. Keçirilmiş əməliyyat tədbiri nəticəsində əllərində partlayıcı qurğu ilə bir erməni və bir rus təxribatçı ələ keçirildi. Bir müddət sonra Heydər Əliyev İrəvanda əsirlikdə olan 16 yaşlı Vüqar adlı gənclə rusun dəyişdirilməsi tapşırığını verdi. Vüqar bizə dedi ki, Mingəçevirdə yaşayır. Gəncəyə dayısıgilə qonaq gəlib, oradan isə Gürcüstana gedib. Məqsədi Türkiyəyə getmək idi. Sərhəddə ruslar onu saxlayıb, sonra ermənilərə satmışdılar. Vüqarın söhbətindən məlum oldu ki, dayısı dostu ilə birlikdə Qarabağda gedən döyüşlərdə iştirak edir.

Naxçıvan MR əks-kəşfiyyatının rəisi kimi onsuz da işlərim çox idi. 1991-ci ildə biz ilk dəfə olaraq Naxçıvanda DTK-nın (KQB) fəaliyyətini dayandırmışdıq. Heydər Əliyev Naxçıvanda dövlət təhlükəsizliyi ilə bağlı bütün məsələləri bizə həvalə etmişdi. Yeni təlimata görə, mən birbaşa Heydər Əliyevlə işləməyə başlamışdım. İstədiyim vaxt onunla görüşürdüm. İlk sualı “ermənilər hücum edərsə, onların qarşısını almağa gücümüz yetərmi?” – oldu. Ermənilərin xəyanətkarlığı dünyaca tanınmış siyasət adamı olan Heydər Əliyevi çox narahat edirdi. Qarşıda bizi böyük bir imtahan gözləyirdi.

Azərbaycanda gedən milli azadlıq hərəkatı öz bəhrəsini vermişdi. Xalqımız müstəqilliyə qovuşmuşdu. Müstəqil dövlətimizin atributları ilk dəfə olaraq Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda qəbul edilmişdi. O cümlədən müstəqilliyimizi, ərazi bütövlüyümüzü



qorumaq üçün Dövlət Milli Müdafiə Komitəsinin (DMMK) yaradılması ilə bağlı xüsusi qərar xalqımızda milli qürur hissi yaratmışdı. İlk Milli Ordu hissəsi olan Naxçıvan DMMK qısa zamanda səfərbərlik elan edərək sıralarını qəhrəman övladları ilə genişləndirdi. Sıramıza hətta Cənubi Azərbaycandan, qardaş Türkiyədən gələn vətənpərvərlər də qoşulmuşdular. Məlum səbəblərdən onların adlarını yaza bilmirəm. Bu qəhrəmanların adları bizim qəlbimizdədir.

Tarix təkrar olunurdu. Türkiyədə istiqlal savaşında Mustafa Kamal Atatürkün rəhbərliyi altında 57 və 22-ci alaylarda Azərbaycandan gedən könüllü əsgər və zabitlər döyüşmüşdülər. İndi də qardaşlarımız könüllü olaraq bizə köməyə gəlmişdilər.

Azərbaycan xalqı Nuru paşanı, Ənvər paşanı, Kazım Qarabəkir paşanı sevgi dolu qəlbində yaşadır. Azərbaycanda hər yerdə olduğu kimi, Naxçıvanda da türk şəhidlərinə böyük ehtiram var. Məzarları daim ziyarət olunur, duaları əskik olmur.

Dövlət Milli Müdafiə Komitəsinin komandiri, yaxın dostum, Naxçıvanın qəhrəman oğlu Elman Abbasov oldu. Bu, o zaman idi ki, Bakıda Respublika Prezidenti Milli Ordu yaratmaq əvəzinə, özünü qorumaq üçün prezident qvardiyası yaratmaq istəyirdi. Bunun üçün Milli Məclisdə debatlar aparılırdı.

Bakı və digər rayonlardan olan çağırışçılar Rusiyaya, keçmiş Sovetlər Birliyinin respublikalarına hərbi xidmətə göndərilirdilər. Naxçıvanda isə çağırışçılar ilk Milli Ordumuzda – Naxçıvan Dövlət Milli Müdafiə Komitəsində həqiqi xidmət keçərək Naxçıvanın ərazi bütövlüyünü qoruyurdular.

Burada, eyni zamanda, Sovet Ordusuna məxsus hərbi diviziya və sərhəd dəstəsi fəaliyyət göstərirdi. Rus general və zabitləri bizə deyirdilər ki, siz ordu yarada bilməzsiniz. Onlar bizi daim qıcıqlandırır və gecələr milli formalarımızı geyərək avtomat silahlardan atəş açıb təxribat törədirdilər. “Təxribatı siz ruslar törədirsiniz” – dedikdə inkar edirdilər. Heydər Əliyevə dedim ki, “qısa vaxtda diviziya komandiri general Slaboşevski Sizin qarşınızda diz çökəcək, təxribatların qarşısı alınacaq.” Apardığım əməliyyat tədbirləri nəticəsində hər üç alayda xidmət edən əsgər və zabitlərdən aldığım 30-dək izahatı ulu öndərə təqdim etdim. İzahatlarda konkret yazılmışdı: “Polk komandirləri bizi məcbur edirlər ki, təxribat törədək.” Rus generalı bu izahatları görən zaman dili topuq vurmuş, deməyə söz tapmamış, Heydər Əliyevdən üzr istəyərək bu cür halların təkrar olmayacağına söz vermişdi. Əsas məsələ isə hələlik həll edilməmiş qalırdı. Bu Milli Ordumuzun silaha-sursata, ağır texnikaya olan ehtiyacını ödəmək idi.

Ruslar təxribatlarından əl çəkmək istəmirdilər. Sərhəd dəstəsinin zabitləri də fəaliyyətə keçmişdilər. DMMK sədri Elman Abbasov məni yanına dəvət edib bildirdi ki, Ordubadda ruslar silah gücünə 4 əsgərimizi əsir götürüblər. Üç gündür ki, onları Naxçıvan Sərhəd Dəstəsində saxlayıblar və buraxmaq istəmirlər. Onları azad etmək lazımdır. Mən baş leytenant paqonlarını çiynimə taxaraq sərhəd dəstəsinə gəldim. O zaman Sərhəd Qoşunları DTK-ya (KQB) bağlı qurum idi. “Rabitə bölüyünün komandiriyəm, polkovnik Jukovla görüşmək istəyirəm” – deyə növbətçiyə müraciət etdim. Planım baş tutmuşdu. Bir neçə dəqiqədən sonra Jukov məni qəbul etdi. Qurduğum dialoq ona çox təsir etmişdi. Yarım saatlıq görüşdən sonra qərargah rəisini və əlavə 3 nəfər podpolkovnik rütbəli zabiti yanına çağırdı. Həmin zabitlərdən biri Naxçıvandan idi. Mən onu tanıyırdım. Təxminən, 1 saat söhbətdən sonra əsgərlərimizi alıb iş yerimə qayıtdım. Valideynlərinin sevincdən gözləri yaşarmışdı.

Bu hadisədən bir neçə gün sonra məlumat aldıq ki, baş prokurora qarşı təxribat törədiləcək. O, işin çoxluğundan idarədə gecələyirdi. Təxribatçılar həmin gün otağın açarını oğurlamışdılar. Açarı onlardan alıb müvafiq söhbətdən sonra prokurorluğa gəldim. Prokurorun yanında sərhəd dəstəsində işləyən zabit Cahangir Qulamov da vardı. O, Hüseyn Hüseynova mənim əsgərlərimizi Jukovdan necə aldığımı söylədi. Sonralar o, Naxçıvan sərhəd dəstəsinin ilk komandirlərindən biri oldu. Açarı Hüseyn müəllimə verib ona ehtiyatlı olmağı məsləhət gördüm.

Qonşu ölkədən gələn casus qərargah rəisinin iş otağından Naxçıvanın müdafiə planını əldə edə bilsə də, onun şəhərdən çıxarılmasına yol vermədik. Sənədi alıb DMMK sədrinə təhvil verdik.

Az sonra xəbər gəldi ki, Ali Məclis Sədrinin 1-ci müavini yoxa çıxıb. Heydər Əliyev Rəşid Həsənovun təxribatçılardan azad edilməsi üçün bizə göstəriş verdi. Çətin danışıqlardan sonra onu geri aldıq. Bu hal bir neçə dəfə təkrar oldu.

Ermənilərə casusluq edən bir rus zabitini vaxtında ifşa edərək, onun İrəvana getməsinin qarşısını aldıq. Onu ciddi cəzalandırdıq. Bizə müxtəlif yollarla edilən təzyiq və təxribatlara baxmayaraq, vəzifəmizin başında ayıq-sayıq dayanmışdıq.

Vüqarı Gəncəyə Əbdül Məmmədov aparacaqdı. Lakin müəyyən səbəbdən bir gün sonra o, Gəncəyə getdi. Getməzdən öncə yarım saatlıq söhbətimiz oldu. İki gün sonra Əbdül bəy geri döndü. Gözlədiyim bir məktubu gətirmişdi. Vüqar ailəsinə qovuşmuşdu.

Bundan əvvəl biz goranboylu Ümid kişini erməni əsirliyindən azad etmişdik. Bu hadisə Azərbaycanda xilaskar Heydər Əliyev obrazı yaratmışdı. Vüqarın ailəsi Əbdül bəyi çox səmimi qarşılamışdı. O, çox sevincli idi. Heç kəsə bəlli deyildi ki, bir neçə aydan sonra Sədərəkdə gedən ağır döyüşlərdə Əbdül bəy onurğa sütunundan güllə yarası alıb ömrünün sonunadək yataq xəstəsi olacaq. Üstəlik, 2016-cı il Aprel döyüşlərində oğlu mayor Rasim Məmmədov qəhrəmancasına şəhid olacaq və oğlunun qırxı çıxmamış bu acıya dözməyən ata da dünyasını dəyişəcək. Cəhri kənd qəbiristanlığında iki qəbrin üzərində Azərbaycan Bayrağı dalğalanır. Burada qəhrəman ata-oğul uyuyur.

Yenicə işə gəlmişdim. Köməkçim məlumat verdi ki, Gəncədən bir nəfər



qəbula gəlmək istəyir. Vüqarın dayısı idi. Nədənsə təşəkkür etmək məqsədilə mənim yanıma gəlmişdi. Minnətdarlığı Heydər Əliyevə çatdırmaq üçün onu Ali Məclisə göndərdim. Görüşdən sonra yanıma gəldi. Heydər Əliyev onu çox səmimi qəbul etmişdi. Mənə dedi ki, dostu Gəncə Şəhər Müdafiə Şurasının sədridir. Biz sizə müəyyən köməklik edə bilərik.

Heydər Əliyev Gəncəyə getməyimə icazə verdi. Hazırladığım təklif və planı məruzə etdim. Üç gün ərzində Gəncədən Naxçıvana hərbi yardım gətirməli idim.

O zamankı Azərbaycan rəhbərliyinin Naxçıvana münasibəti məlum səbəblərdən çox soyuq idi. Naxçıvan tam blokada vəziyyətində çətin günlərini yaşayırdı. Azərbaycanla əlaqə yalnız hava nəqliyyatı vasitəsilə həyata keçirilirdi. Bütün bunları nəzərə alaraq Naxçıvan MR Nazirlər Kabinetindən “AZAL”a ünvanlanmış bir məktub aldım. Məktubda yazılmışdı ki, Gəncədən Naxçıvana meyvə-tərəvəz daşımaq üçün bizə bir yük təyyarəsi verilsin. Məktubla Bakı şəhərinə gəldim. “AZAL”ın rəhbərliyinə məktubu verəndə xahiş etdim ki, ekipajın komandiri azərbaycanlı olsun. Xahişimi təmin etdilər. AN-26 tipli yük təyyarəsinin komandiri Cavanşir bəyin heyəti ilə birlikdə Gəncə aeroportunda yerə endik. Qabaqcadan planlaşdırdığımız kimi, bir maşın hərbi yüklə aeroporta yaxın yerdə bizi gözləyirdi. Təzəcə təyyarədən enmişdik ki, iki nəfər mülki geyimli şəxs bizə yaxınlaşdı. Bakı ləhcəsində rusca danışırdılar. Bakıdan telefonoqram aldıqlarını, Naxçıvana kimə, hansı yükün gedəcəyindən xəbərdar olduqlarını bildirdilər. Aeroportun binasını göstərib orada snayper yerləşdirdiklərini, əgər təyyarəyə yük vurularsa, nəinki mənim, hətta ekipaj üzvlərinin həyatlarının təhlükədə olacağını deyib getdilər. Ekipaj üzvlərinin həyatları ilə risk edə bilməzdik. Odur ki, Cavanşirə dedim ki, iki gündən sonra saat 10.00-da Gəncə aeroportunda olsun. Təyyarə Bakıya geri uçdu.

Bakıda vəziyyət yenidən gərginləşmişdi. Respublika rəhbərliyinin ciddi səylə gizlətdiyi Xocalı faciəsinin dəhşətləri Azərbaycan xalqını ayağa qaldırmışdı. Ermənilər ruslara məxsus 366 saylı alayın köməyi ilə insanlıq tarixinin görünməmiş vəhşiliyini həyata keçirmişdilər. Bu vəhşilik insanlıq tarixinin ən utancverici səhifəsi idi. Xocalı faciəsi axıradək tam tədqiq olunmayıb. Hər bir sakinin həyatı dəhşətli faciədir.

Qeyri-rəsmi şəkildə el arasında İmam Hüseyn şəhəri adlandırılan, Şeyx Nizami Gəncəvinin ana yurdu olan, həmçinin Azərbaycan Demokratik Respublikasının ilk paytaxtı kimi tarixə düşən Gəncə Azərbaycanda milliliyini qoruyub saxlamış ikinci böyük şəhərdir. Gəncəlilər tarixi igidimiz Cavad xan kimi vətənpərvər, mərd, qorxmaz və çox qonaqpərvərdirlər. İzmir Türkiyə üçün nə qədər əhəmiyyət daşıyırsa, Gəncə də Azərbaycan üçün bir o qədər qiymətlidir.

İki gün ərzində şəhərin rəhbərliyi və hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşüb tanış oldum. Yalnız risk edib birinə gəlişimin əsl məqsədini açıqladım. Çox təhlükəli və heç bir qanun çərçivəsinə sığmayan bir işi görmək istəyirdik. Bu qanunsuz işə görə həbs olunsaydım, azı 15 il “yatacaqdım”. Müraciət etdiyim şəxs Gəncə şəhər polis idarəsi rəisinin müavini, polkovnik Ramiz Cahangirov oldu. İlk dəfə idi ki, onunla görüşürdük. Məni gözlədiyimdən səmimi qəbul etdi. Ramiz müəllim vaxtilə Naxçıvanda Daxili İşlər Nazirliyində Cinayət Axtarış İdarəsinin rəisi işləmişdi. Naxçıvanı çox yaxşı tanıyırdı, o cümlədən də mənim atamı. Yeri gəlmişkən Ramiz müəllim dinc Xocalı sakinlərinin döyüş bölgəsindən vertolyotlarla çıxarılmasında şəxsən iştirak etmişdi. Qısa məşvərətdən sonra mənə kömək edəcəyini bildirdi.

Gəncə aeroportunda ruslara məxsus hərbi hava qüvvələrinin bazası yerləşirdi. Bütün silahlı qüvvələr general Şerbakın tabeliyində idi. Aeroportda rus desantçıları, demək olar ki, hər şeyə nəzarət edirdilər. Mənə, təxminən, 30 dəqiqə vaxt lazım idi ki, desantçıların diqqətini cəlb etmədən təyyarəni yükləyim. Təyyarənin iç ölçülərini öncədən götürmüşdüm. Hansı yük təyyarənin hansı tərəfinə yüklənəcəksə, bu barədə sxemi çəkib mənə kömək edəcək dostlarıma vermişdim. Plan belə idi: Mən Ramiz müəllimin xidməti maşınında, arxamızca da üstüörtülü bir yük maşını aeroportun ərazisinə daxil olacaqdıq. Cavanşir bəy təyyarəni əvvəlcədən şərtləşdiyimiz yerdə saxlayacaq və AN - 26 tipli təyyarə 4 ton yükümüzü aparacaqdı. Ona görə də bizə son dərəcə vacib olan yükləri öncədən tədarük etmişdik. Təyyarəyə girişin arxadan olması işimizi çox asanlaşdıracaqdı. Bu səbəbdən AN-26-nı seçmişdik.

Həmin gün Gəncə Müdafiə Şurasının sədri Elşən Əliyevin atası Şubay kişinin evində qaldım. Onların yük maşınına müəyyən ardıcıllıqla qutuları yerləşdirdim. Özü, üç oğlu və iki qohumu mənə kömək edirdi. Aeroporta onlarla gedəcəkdik. Hər şey qaydasında idi. İçimdə ağır narahatlıq vardı. Ekstremal vəziyyətə hazır deyildim. Üstümdə silahım yox idi. Şubay kişiyə bir avtomat lazım olduğunu dedim. İki saatdan sonra bir Kalaşnikov avtomatı gətirdi. Silahı paltosunun altında, aeroporta keçirəcəyini tapşırdım və lazım olduğu halda müəyyən işarə ilə mənə verəcəyini dedim. Elşənlə görüşə bilmədim, o cəbhədə döyüşürdü.

Həyəcanla səhərin açılmasını gözləyirdim, gecəni yatmamışdım. Sabah Gəncədə üç gün olduğum tamamlanırdı. Nəyin bahasına olursa-olsun yükü Naxçıvana çatdırmalıydıq.

**(ardı var)**

***Urfullah QURBANOV,***
***Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi***

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 938-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 938-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 440.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 938-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissə üzrə:

2.1.1. 4.1-ci bənddən "421," rəqəmləri, ", 548.1, 548.2 və 548.3-cü" sözləri çıxarılsın və həmin bənddə "435, 439.1, 439.2 (hər iki halda), 462.1, 463-cü maddələrində, 471-ci maddəsinin adında və mətnində, 472, 473.2, 473.3, 477-1.1.7 (hər iki halda), 477-2.1.2-ci, 478-ci maddələrində, 477-2.1.2-ci, 478-ci və 548-ci maddələrinin adlarında" sözləri "462.1, 477-1.1.7 (hər iki halda), 477-2.1.2" sözləri ilə əvəz edilsin;

2.1.2. 4.1-1-ci və 4.1-2-ci bəndlər ləğv edilsin;

2.1.3. 4.51-ci bənddən "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası," sözləri çıxarılsın;

2.1.4. 4.55-ci bənddən "və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri çıxarılsın;

2.2. 5-ci hissə üzrə:

2.2.1. 5.43-cü və 5.50-1-ci bəndlər ləğv edilsin;

2.2.2. 5.47-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.47. həmin Məcəllənin 414–427, 428.8, 430.3, 430.4, 433, 435, 436, 438.1, 439, 439-1, 440.1, 440.2, 463, 468, 470, 472–476, 478 və 548-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Mərkəzi Bankı baxır;";

2.2.3. 5.50-ci və 5.56-cı bəndlərdə "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146, № 11, maddələr 1267, 1269, № 12, maddələr 1414, 1462, 1464; 2023, № 1, maddə 97, № 2, maddə 226, № 3, maddə 375, № 4, maddələr 472, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2149 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 14-cü hissə ləğv edilsin;

3.2. 15-ci hissə aşağıdakı redaksiyada verilsin:

"15. Azərbaycan Respublikasının Mərkəzi Bankı adından:

15.0. Məcəllənin 414 – 427, 428.8, 430.3, 430.4, 432.4 (banklara münasibətdə), 433, 435, 436, 438.1, 439, 439-1, 440.1, 440.2, 457 (bank fəaliyyəti sahəsində qiymətli metalların və qiymətli daşların uçotu, saxlanılması, mühafizəsi və dövriyyəsi qaydalarının pozulması ilə əlaqədar inzibati xətalar haqqında işlərə), 462 (bank olmayan kredit təşkilatlarına, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərə, investisiya fondlarına və onların idarəçilərinə, həmçinin sığorta, təkrarsığorta və sığorta vasitəçiliyinə münasibətdə), 463, 468, 470, 472 – 476, 478 və 548-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – Mərkəzi Bankın sədri, onun müavinləri, baş direktorları, departament direktorları, şöbə rəisləri, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin rəhbəri, onun müavini.".

**4.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 34-2.1-ci və 59.3-cü bəndlərdə "57.2.2-ci yarımbəndində" sözləri "37.4-cü bəndində" sözləri ilə əvəz edilsin;

4.2. 37.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"37.4. maliyyə bazarlarına nəzarət edilən subyektlərə münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı adından – Mərkəzi Bankın sədri, onun müavinləri, baş direktorları, direktorları, şöbə rəisləri, böyük mütəxəssis (böyük hüquq məsləhətçisi), aparıcı mütəxəssis (aparıcı hüquq məsləhətçisi), mütəxəssis (hüquq məsləhətçisi) Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin rəhbəri, onun müavini.";

4.3. 38.2-ci, 43.2-ci və 50.1-ci bəndlərdə, 39-cu və 52-ci hissələrdə "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə, "33.1-ci" sözləri "37.4-cü" sözləri ilə əvəz edilsin;

4.4. aşağıdakı məzmunda 44-1-ci hissə əlavə edilsin:

"44-1. Məcəllənin 440-1.1-ci (dövlət orqanları (qurumları) və bələdiyyələr tərəfindən törədilən inzibati xətalar istisna olmaqla) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Mərkəzi Bankı adından – bu Siyahının 37.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.";

4.5. 57.2.2-ci yarımbənddə "Mərkəzi Bankın sədri, onun müavinləri, baş direktorları, direktorları, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin rəhbəri, onun müavini" sözləri "bu Siyahının 37.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 1 avqust 2023-cü il***

## "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 968-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

"Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 822; 2016, № 8, maddə 1384, № 11, maddə 1821, № 12, maddə 2062; 2017, № 3, maddə 354, № 7, maddə 1378, № 12 (I kitab), maddə 2295; 2018, № 11, maddə 2289; 2019, № 3, maddə 439, № 4, maddə 611; 2020, № 7, maddə 891; 2021, № 12, maddə 1428; 2023, № 3, maddə 374) 2.13-cü bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 1 avqust 2023-cü il***

## R.A.Hüseyn-zadənin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Rəfiqə Abdul Ağa qızı Hüseyn-zadə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 1 avqust 2023-cü il***

## "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 248; 2009, № 6, maddə 424; 2010, № 2, maddə 80, № 9, maddə 773; 2011, № 6, maddə 519; 2012, № 2, maddə 105; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521, № 9, maddə 1664; 2018, № 8, maddə 1677; 2019, № 3, maddə 492; 2020, № 3, maddə 262; 2021, № 9, maddə 1026; 2022, № 4, maddə 344, № 9, maddə 1052; 2023, № 3, maddə 391) 1-ci hissəsinə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi İdarə Heyətinin sədri".

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Türkiyə Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 1 avqust 2023-cü il***

## "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 avqust tarixli 1638 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 avqust tarixli 1638 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 723; 2009, № 6, maddə 424, № 7, maddə 589; 2012, № 2, maddə 126; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 1, maddə 79, № 6, maddə 1321; 2019, № 11, maddə 1726; 2022, № 12, maddə1516) 1-ci hissəsinə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi İdarə Heyətinin sədri".

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Rusiya Federasiyası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 1 avqust 2023-cü il***

## "Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 2999 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 2999 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1177; 2018, № 3, maddə 529; 2020, № 3, maddə 264; 2021, № 9, maddə 1032; 2022, № 5, maddə 535; 2023, № 3, maddə 391) 1-ci hissəsinə "Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi İdarə Heyətinin sədri".

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə İsrail Dövləti tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 1 avqust 2023-cü il***

## "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 966-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

"Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1012; 2008, № 3, maddə 165; 2009, № 8, maddə 630; 2016, № 12, maddə 2073) 2.18-ci bəndinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 2.19-cu bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 1 avqust 2023-cü il***

## Spikerin beynəlxalq parlament təşkilatlarına müraciəti

**Avqustun 1-də Milli Məclisin Sədri Sahibə Qafarova beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə və xarici ölkələrin parlament sədrlərinə məktub ünvanlayıb.**

Məktubda bildirilir ki, 2020-ci ilin payızında Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində öz torpaqlarının Ermənistan tərəfindən 30 il davam edən işğalına son qoymuş və ərazi bütövlüyünü bərpa etmişdir. Münaqişə qurbanı olmasına baxmayaraq, məhz Azərbaycan Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin bərqərar edilməsi üçün sülh təşəbbüsü irəli sürmüşdür.

Məktubda təəssüflə qeyd edilir ki, ötən dövr ərzində Ermənistan Laçın yolundan istifadə etməklə Azərbaycana qarşı hərbi təxribatlarını və onun daxili işlərinə müdaxilələri davam etdirmiş, eyni zamanda, Qarabağ erməniləri ilə dialoqun irəliləməsinə maneçilik törətmişdir. 2023-cü ilin aprel ayında Azərbaycan Respublikası beynəlxalq hüquq normalarına müvafiq surətdə öz suveren hüququnu həyata keçirərək Laçın sərhəd-buraxılış məntəqəsini qurmuşdur. Beynəlxalq Ədalət Məhkəməsinin son qərarında da Azərbaycanın bu hüququ təsbit olunmuşdur…

Vurğulanır ki, Azərbaycan Xankəndi şəhərinə və ətraf kəndlərə humanitar yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunu təklif etmiş və bu təklif beynəlxalq səviyyədə də dəstək almışdır. Ağdam-Xankəndi yolunun separatçılar tərəfindən bağlanması bu kampaniyanı başlatmış qüvvələrin həqiqi niyyətlərindən xəbər verir.

Bildirilir ki, Azərbaycan bölgədə sülh və sabitlik yaradılması üçün konstruktiv dialoqa sadiq olduğunu dəfələrlə nümayiş etdirmiş və bu istiqamətdə səylərini davam etdirəcək. Eyni zamanda, Qarabağda yaşayan erməni sakinlərinin hüquqları ölkə Konstitusiyası və qanunları əsasında təmin olunacaqdır.

Məktubun sonunda qeyd olunur ki, şərh edilənlərlə əlaqədar beynəlxalq ictimaiyyət məsuliyyətli yanaşma nümayiş etdirməli, Ermənistan tərəfinin manipulyasiyalarına aldanmamalı və konstruktiv dialoqa sadiqlik göstərməyin zəruriliyini Ermənistana izah etməlidir.

***"Xalq qəzeti"***

# Azərbaycan Avropanı Asiya ilə birləşdirən Orta Dəhlizin önəmli qovşağıdır

## Aİ ilə genişlənən nəqliyyat əlaqələri ölkəmizə milyardlarla dollar vəsait qazandıracaq




**Avropa İttifaqı (Aİ) ilə enerji sahəsində fəal əməkdaşlıq edən Azərbaycan son illər ümumi inkişaf və tərəqqiyə xidmət edən beynəlxalq səviyyəli nəqliyyat-logistika layihələrini də dəstəkləyir, onların reallığa çevrilməsində yaxından iştirak edir. Bu baxımdan yeni əsrin əsas nəqliyyat marşrutlarından sayılan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) kimi irimiqyaslı layihə xüsusi qeyd edilməlidir.**

Elə Avropa İttifaqında da Azərbaycanla nəqliyyat əlaqələrinin gücləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanır. Belə ki, Avropa Komissiyasının bugünlərdə yaydığı məlumatda bildirilir ki, Avropa İttifaqı ilə Azərbaycan arasında nəqliyyat əlaqələrinin gücləndirilməsi Ukraynadakı müharibə şəraitində Rusiyanın cənubunda yerləşən Orta Dəhliz kimi nəqliyyat marşrutlarının əhəmiyyətini artırır.

Komissiyadan bildiriblər ki, bu dəhlizin bir hissəsi də Trans-Avropa Nəqliyyat Şəbəkəsinin genişləndirilməsi layihəsinin tərkib hissəsi olaraq Azərbaycandan, xüsusən də Xəzər dənizində yerləşən Bakı limanından keçir. Ona görə də Aİ ilə Azərbaycan arasında nəqliyyat əməkdaşlığının inkişafı Azərbaycanın Avropa ilə Asiya arasında əlaqə kimi əsas rolunun gücləndirilməsində mühüm rol oynayır.

Bildirilib ki, Mərkəzi Asiya ilə dayanıqlı nəqliyyat əlaqələrinin öyrənilməsinin davamı olaraq Aİ 2024-cü ilin əvvəlində Brüsseldə İnvestor Forumu təşkil etməyi düşünür. “Məqsəd iki region arasında dayanıqlı nəqliyyat əlaqələrinin səmərəli inkişafına töhfə verməkdə maraqlı olan Aİ və Mərkəzi Asiya ölkələrindən dövlət və özəl şirkətləri bir araya gətirməkdir”, – deyə məlumatda qeyd olunub.

Prezident İlham Əliyev iyunun 20-də Çinin “China Media Group” media korporasiyasına müsahibəsində Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşdiyini xatırladaraq bildirib ki, vaxtilə nəqliyyat infrastrukturunun olmaması ucbatından ölkəmiz bu əlverişli coğrafi imkanlarından istifadə edə bilmirdi. Dövlətimizin başçısı deyib: “Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq. İlk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün biz bu sahəyə böyük sərmayə yatırmağa başladıq. Eyni zamanda, qonşularımızla da bağlantı körpüləri qurmağa başladıq. Biz mühüm tranzit ölkəsi olmaq arzusundaydıq, ancaq bunun üçün təkcə coğrafiya kifayət etmir. Hətta infrastruktur da kifayət deyil, burada digər məsələyə ehtiyac var. Bu isə qonşularla yaxşı münasibətlərdir. Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə çevrilmək olmaz. Bu isə bizim xarici siyasətimizin tərkib hissəsi idi”.

Çinli jurnalistin sualını cavablandıran Prezident İlham Əliyev bildirib ki, Azərbaycan “Bir kəmər, bir yol” layihəsinə qoşularkən artıq hazır infrastrukturu var idi. İndi isə ölkəmizdə infrastrukturla bağlı texniki imkanların artırılması sahəsində işlərin görüldüyünü diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib ki, Şərqdən Qərbə daşınan yüklərin həcminin artması səbəbindən yükdaşıma baxımından yarana biləcək problemlərin aradan qaldırılması məqsədilə ticarət limanımızı genişləndirir, dəmir yolumuzu müasirləşdiririk. Prezident, həmçinin Azərbaycandan Türkiyə və Avropa istiqamətində gedən əlavə yol olacaq Zəngəzur dəhlizi üzərində çox fəal şəkildə iş aparıldığını diqqətə çatdıraraq ölkəmizin ərazisində tikinti işlərinin, təxminən, 70 faizinin başa çatdırıldığını bildirib.

Yeri gəlmişkən, Avropa İttifaqı tərəfindən aparılmış araşdırma göstərir ki, 2040-cı ilə qədər Orta Dəhliz boyunca konteyner daşımaları 270 min TEU-ya çata bilər. Bununla yanaşı, yaxın 10 ildə Asiya ilə Avropa qitələri arasındakı ticarət dövriyyəsinin həcminin 650-700 milyard dollara çatacağı proqnozlaşdırılır. Bunun isə ölkəmiz üçün iqtisadi səmərəsi son dərəcə yüksək olacaq. Ekspertlər hesab edirlər ki, əgər beynəlxalq yüklərin 10 faizi Azərbaycan üzərindən daşınsa, ölkəmizin büdcəsi il ərzində bundan 3-3,5 milyard dollar vəsait qazanacaq.

***Mirbağır YAQUBZADƏ, “Xalq qəzeti”***

### Ekspert rəyi



**Təbriz YADİGAROV,**
**ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**

Azərbaycanın coğrafi mövqeyi və mövcud yol-nəqliyyat infrastrukturu ölkəmizi Orta Dəhliz üzrə yeni ticarət yolunun inkişafında potensial dayaq nöqtəsinə çevirir. Son illər Azərbaycan bu ticarət dəhlizinin əhəmiyyətinin artmasını nəzərə alaraq iddialı strateji planlaşdırma və artan ticarət həcmini idarə etmək məqsədilə nəqliyyat infrastrukturunun inkişafına və təkmilləşdirilməsinə böyük sərmayə qoyub.

Artıq ölkəmiz daha böyük həcmdə yüklərin qəbulu və malların səmərəli daşınmasını asanlaşdırmaq üçün limanlarını genişləndirməyi üzərinə götürməklə yanaşı, Xəzərdə ən böyük logistika donanmasının tərkibini yeniləyərək Orta Dəhlizdə yüksək dəyərli əmtəələri idarə etmək qabiliyyətinə malik olmaqla artan ticarət dövriyyəsini idarə etməyə tam hazırdır.

Rusiya–Ukrayna müharibəsi Şimal marşrutu ətrafında qeyri-müəyyənliklərin yaranmasına, bu dəhlizlə bağlı əməliyyat riskinin və xərclərin xeyli artmasına səbəb olub. Avropa və Çin arasında fasiləsiz ticarət əlaqələrini saxlamaq üçün geosiyasi baxımdan təhlükəsiz və logistik cəhətdən əlverişli olan Orta Dəhliz Rusiyadan yan keçməklə yüklərin daha sürətli daşınmasını təmin etməyə imkan verir. Bu isə Avropa İttifaqı ilə Azərbaycan arasında nəqliyyat əlaqələrinin gücləndirilməsini şərtləndirən Orta Dəhlizin əhəmiyyətini daha da artırır.

Qeyd edək ki, 4250 kilometr dəmir yolu xətlərindən və təxminən 500 kilometr dəniz yolundan ibarət olan Orta dəhliz Çindən, Qazaxıstandan, qismən də Özbəkistan və Türkmənistandan keçməklə Xəzər dənizi, Azərbaycan və Gürcüstandan Qara dənizə uzanan multimodal quru və dəniz nəqliyyatı marşrutu kimi ölkəmizlə Aİ dövlətləri arasında dayanıqlı nəqliyyat əlaqələrinin səmərəli inkişafında və iqtisadi əlaqələrin genişləndirilməsində mühüm rol oynayır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2023-cü ilin ilk yarısında Azərbaycanla Aİ ölkələri arasında ümumi ticarət dövriyyəsi 13 milyard 734 milyon 592 min ABŞ dolları təşkil edib ki, bunun da 12 milyard 192 milyon 335 min dolları ixrac, 1 milyard 542 milyon 256 min dolları isə idxal əməliyyatlarının payına düşüb. Aİ ölkələri ilə ixrac əməliyyatlarının 64 faizini isə xam neft və xam neft məhsulları təşkil edib. Ümumilikdə, Aİ ilə ticarət dövriyyəsinin həcmi ötən ilin müvafiq dövrünə nisbətən 9,7 faiz artıb.

Araşdırmalar göstərir ki, Ai ilə nəqliyyat əlaqələrinin gücləndirilməsi iqtisadiyyatın şaxələndirilməsi və neftdən sonrakı dövrdə “qara qızıl”dan əldə olunan gəlirlərdən asılılığın azaldılmasında mühüm strateji transformasiya rolunu oynayacaq. Bu amil, həm də ölkəmizi qlobal ticarət yollarında həlledici oyunçuya çevirməklə əhəmiyyətli geosiyasi təsir rıçaqlarının yaranmasına imkan verəcək. Bu isə qlobal səhnədə Azərbaycanın mövqeyini daha da gücləndirərək ölkəmizin təhlükəsizliyinə böyük töhfə verəcək.

## Dəniz nəqliyyatı ilə yükdaşıma artıb

**Cari ilin yanvar-iyun aylarında ölkəmizdə dəniz nəqliyyatı ilə 4 milyon 514,7 min ton yük daşınıb. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 21,7 faiz çoxdur. Dövlət Statistika Komitəsinin məlumatına görə, yüklərin 56,2 faizi xam neftin payına düşüb.**



Hesabat dövründə dəniz limanları tərəfindən 6 milyon 328,2 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib. Bunun da 5 milyon 211,8 min tonunu və ya 82,4 faizini tranzit yüklər təşkil edib. 2023-cü il iyul ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi isə 237,3 min ton olub.

İlin birinci yarısında bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2022-ci ilin müvafiq dövrünə nisbətən 6,1 faiz artaraq 10,5 min nəfər təşkil edib.

## Horadiz–Ağbənd dəmir yolunun tikintisi davam etdirilir

**Qlobal strateji əhəmiyyət daşıyan Zəngəzur dəhlizinin Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisi uğurla davam etdirilir.**



“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətindən verilən məlumata görə, ox üzrə uzunluğu 110,4 kilometr olan yolun 80 faiz layihələndirilməsi yerinə yetirilib. Bununla yanaşı, 64,3 kilometr məsafəyə kimi rels-şpal çərçivələri quraşdırılıb, 334 mühəndis qurğusunun tikintisi başa çatdırılıb. Onlardan 20-si müxtəlif ölçülü körpülərdir.

Hazırda dəmir yolu xəttinin 68-84 kilometr aralığında torpaq və mühəndis qurğularının tikintisi işləri həyata keçirilir.

## 3 mindən çox milli kompüter buraxılıb

**Bu ilin yanvar–iyun ayları ərzində Azərbaycanda 2 min 952 ədəd stolüstü, 330 ədəd isə dizüstü fərdi kompüter istehsal edilib.**

Dövlət Statistika Komitəsinin məlumatında daha sonra bildirilir ki, hesabat dövründə 3,3 dəfə stolüstü kompüter, 22 dəfə isə dizüstü kompüter istehsalı artıb.

Qeyd edək ki, 2022-ci ilin yanvar–iyun aylarında 898 ədəd stolüstü kompüter, 15 ədəd isə dizüstü kompüter istehsal edilib.

***“Xalq qəzeti”***

## “Azəri-Mərkəzi-Şərqi” platformasının üst modulunda işlər tamamlanır

### Payızda dənizə göndəriləcək özüldən 300 milyon barel neft hasil ediləcək

**“Yeni əsrin müqaviləsi” çərçivəsində inşa olunan “Azəri–Mərkəzi–Şərqi” (ACE) platformasının üst modulu bu ilin üçüncü rübündə dənizə göndəriləcək. Bu barədə məlumat “Azəri-Çıraq-Günəşli” (AÇG) layihəsinin operatoru olan Böyük Britaniyanın BP şirkətinin hesabatında əksini tapıb.**

Xatırladaq ki, ötən ay “ATA (“Amec”-“Tekfen”-“Azfen”) yard” sahəsində inşa edilmiş ACE platformasının üst modulu dənizdəki əməliyyat yerinə çatdırılması üçün “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) “STB-1” barjına yüklənməsi ilə bağlı məlumat verimişdi.



Yeri gəlmişkən, son illər AÇG-də neft hasilatında təbii azalma müşahidə olunur. Yeni platformanın tikintisi də blokda hasilatın sabitləşməsi məqsədi daşıyır. Ümumilikdə, ACE platformasının tikintisi layihəsi çərçivəsində işlər 90 faiz tamamlanıb.

Yeni platformada ilk neftin çıxarılması isə gələn ilin əvvəlində gözlənilir. 6 milyard dollarlıq ACE layihəsi Xəzər dənizində nəhəng AÇG yatağının işlənməsinin növbəti mərhələsidir. Layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində, ümumilikdə, 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır.

***“Xalq qəzeti”***

# Makroiqtisadi sabitlik iqtisadi strategiyanın uğurudur

## 6 ayda qeyri-neft sektorundan büdcə daxilolmaları 8,8 milyard manata çatıb

**Bu ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə dövlətimizin başçısı ölkənin sosial-iqtisadi sahələrində diqqətçəkən müsbət göstəricilərə nəzər salaraq ilin sonuna qədər respublikamızda daha yüksək göstəricilərin əldə ediləcəyinə əminliyini vurğulayıb. Azərbaycan rəhbəri çıxışında diqqəti inflyasiyanın ikirəqəmli olmasına da yönəldib və hesabat dövrünün sonuna qədər onun birrəqəmli səviyyəyə düşə biləcəyinə ümid etdiyini xatırladıb. Prezident İlham Əliyev daha sonra bu narahatlıq doğuran məsələni təbii amillərlə yanaşı, subyektiv səbəblərlə də əlaqələndirib və hökumətin bu şəraiti ciddi araşdıraraq atılacaq addımlarla bağlı təkliflər verməsinin zəruriliyini diqqətə çatdırıb.**



Yeri gəlmişkən, Azərbaycan rəhbəri çıxışında ölkənin iqtisadi inkişafı ilə davamlı olaraq güclənən büdcənin maaşları, pensiyaları artırmağa imkan verdiyini də xatırladıb. “Düzdür, inflyasiya bu artımın bir hissəsini, necə deyərlər, yeyir… Amma bu, dünyada ümumi tendensiyadır. Hətta inflyasiya bəlkə 0-0,5, 1 faiz olan ölkələrdə indi inflyasiya ikirəqəmli inflyasiyaya yaxınlaşır. Yəni, bu, ümumi trenddir və biz də dünya iqtisadiyyatının bir parçasıyıq”.

Qeyd edək ki, hazırda respublikamızda illik inflyasiyasının 12 faizə enməsi, tərəfdaş ölkələr üzrə orta çəkili inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin aşağı düşməsi, beynəlxalq yükdaşıma xərclərinin pandemiyadan əvvəlki səviyyədə qeydə alınması, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması və manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, eləcə də pul siyasəti qərarları ilə illik inflyasiya tempinin azalması diqqət çəkir. Eyni zamanda, qlobal maliyyə sistemində sabitliyin pozulması, bir sıra inkişaf etmiş ölkələrdə resessiya təhlükəsinin mövcudluğu və geosiyasi gərginlik müxtəlif kanallarla ölkəmizin inflyasiya proseslərinə təsir potensialını saxlayır. İdxal qiymətləri indekslərinin artım templəri ikirəqəmli səviyyədə qalır. Baza ssenari üzrə fərziyyələrlə 2023-cü ildə illik inflyasiyanın 8,3 faiz olacağı proqnozu da dəyişməz qalır.

Yeri gəlmişkən, burada bir məqamı da xatırladaq. Belə ki, inflyasiyanın tədricən səngiyəcəyi və aşağı düşəcəyini söyləyən bir sıra ekspertlərin sözlərinə görə, Azərbaycanda bu şərait qlobal bazarlarda enerjidaşıyıcılarının qiymətlərinin ucuzlaşması ilə bağlıdır. Bəzi mütəxəssislər isə bu fikirlə razılaşmırlar. Onlar dövlət başçımızın sözləri ilə desək, ölkədə makroiqtisadi sabitliyin təmin edildiyini, manatın məzənnəsinin sabitliyinin qorunduğunu dünya praktikasında, xüsusilə, indiki şəraitdə Azərbaycan üçün nadir hadisələrdən biri kimi vurğulayırlar. Bəli, bu, həqiqətdir, ölkə rəhbərinin düşünülmüş iqtisadi strategiyasının məntiqi təzahürüdür.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının hesabatında qeyd olunub ki, inflyasiyanın davamlılığı əsas aşağı riskdir. Əsas inflyasiya güclü xidmət qiymətləri artımı və bəzi sektorlarda yüksək mənfəət fonunda yapışqanlığını sübut edir. Daha yüksək faiz dərəcələrinin təsiri bütün iqtisadiyyatda getdikcə daha çox hiss olunur və məhdudlaşdırıcı pul siyasəti zəruri olsa da, xüsusilə, yüksək borcu olan ölkələrdə maliyyə zəifliyini daha bariz şəkildə ortaya çıxarır. Bu fonda inflyasiyanın aşağı salınması, fiskal siyasətin tənzimlənməsi və dayanıqlı artımın təşviq edilməsi zərurəti siyasətçilər üçün əhəmiyyətli problemlərdir.

Belə bir şəraitdə deyə bilərik ki, hazırda iqtisadi strategiyanın mərkəzində Azərbaycan vətəndaşı dayanır və makroiqtisadi sabitliyin təmin olunması, sosial şəraitin davamlı şəkildə yaxşılaşdırılması–həm minimum əməkhaqlarının, həm də minimum pensiyaların müntəzəm olaraq artırılması, bununla paralel olaraq manatın sabit saxlanılması məhz bu məqsədə xidmət edir.

Ümumiyyətlə, son illər qlobal iqtisadiyyatda baş verən mənfi meyillərə baxmayaraq, cari ilin birinci yarısında ölkə iqtisadiyyatında yüksək artım templəri nəzərə çarpıb. Belə ki, altı ayda Azərbaycanın dövlət büdcəsinin qeyri–neft–qaz sektoru üzrə daxilolmaları 8 milyard 831,2 milyon manata çatıb. Başqa sözlə, hesabat dövründə büdcə daxilolmalarında qeyri–neft–qaz sektorunun payı 57 faiz təşkil edib. Sənaye zonalarında da dinamik inkişaf diqqət çəkib, sənaye potensialı maksimum reallaşıb. Yəni, zəruri xammalın və enerji resurslarının fasiləsiz təmin olunması nəticəsində bir sıra dövlət və özəl müəssisələr tam istehsal gücü ilə işləyib.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***

### Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Dünya birjasında neftin qiyməti bahalaşmaqda davam edir. Fors major vəziyyət yaranmasa, texniki amillər səbəbilə neftin qiymətinin qarşıdakı aylarda da yüksələcəyi gözlənilir. Buna bir çox fundamental amillər (OPEK+ ölkələrinin neftinin hasilatının məhdudlaşdrılması ilə bağlı qərarı, ABŞ-ın xam neftin ehtiyatının proqnozdan çox azalması ilə bağlı hesabatı) səbəb olsa da, geosiyasi şəraitin də neftin qiymətinə təsiri danılmaz faktdır. Təbii ki burada Rusiya–Ukrayna müharibəsi daha çox nəzərə çarpan geosiyasi amildir. Bununla belə fikrimcə, neftin qiymət artımı Qərb demokratiyasınn ortaya çıxardığı problemdir.

Belə ki,Qərb ölkələrinin bəzi populist liderləri tərəfindən seçki marafonlarında verilən vədləri yerinə yetirmək üçün büdcə xərcləri yeri gəldi-gəlmədi artırılır və beləliklə, nəzərdə tutulduğundan daha çox pul çap etməklə inflyasiyaya yaradılır.

Alternativ enerji mənbələrinin istehsal həcmlərinin və maya dəyərinin rentabelli olmaması şəraitində bu hal ənənəvi enerji mənbələrinin qiymətlərinin artmasına səbəb olan əsas faktordur. Hazırda müşahidə etdiyimiz Qərbin lüks həyat tərzi həmin o populist iqtisadi siyasətlərin nəticəsidir ki, son 40 ildə onların heç bir zaman qarşılaşmadığı inflyasiya ilə müşahidə olunur. Təbii ki, bu amillər neft ixrac edən ölkələrin maraqlarına da uyğundur.

Bu baxımdan belə bir vəziyyət ən çox muharibə aparan ölkə kimi Rusiyanın iqtisadi maraqlarına daha çox cavab verir. Belə ki, Rusiya Federasiyası İqtisadi İnkşaf Nazirliyi 2023-cü il üçün ölkənin ümumi daxili məhsulunun (ÜDM) artım tempinin rəsmi proqnozdan 1,2 faiz arıq olması ilə bağlı keçən ay bəyanat vermişdi.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 249** **Bakı şəhəri, 29 iyul 2023-cü il**

**"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 sentyabr tarixli 386 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 may tarixli 2135 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 sentyabr tarixli 386 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1914; 2023, № 1, maddə 145) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Birinci abzasda "9" rəqəmi "10 (on)" sözləri ilə əvəz edilsin.

**2.** "Kollegiyanın üzvləri:" bölməsindən "Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 250** **Bakı şəhəri, 31 iyul 2023-cü il**

**Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsi barədə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin.

**2.** Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsindən irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

3. Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin cari ildə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyətinin maliyyələşdirilməsi Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsində müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Naxçıvan Dövlət Texniki Kolleci və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Naxçıvan Tibb Kolleci üzrə nəzərdə tutulmuş vəsaitlər çərçivəsində davam etdirilsin, 2024-cü ildən isə Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üzrə nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 3-cü hissəsində qeyd olunan maliyyələşmə məsələlərini növbəti illərin Azərbaycan Respublikasının icmal və dövlət büdcəsinin tərtibi prosesində nəzərə alsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2011, № 7, maddə 745, № 10, maddə 969, № 12, maddələr 1241, 1245; 2012, № 3, maddə 257, № 4, maddə 399, № 6, maddələr 633, 634, № 12, maddə 1346; 2013, № 6, maddə 775, № 9, maddə 1130; 2014, № 1, maddə 72, № 2, maddə 214, № 6, maddə 751, № 7, maddə 907, № 9, maddə 1120; 2015, № 3, maddə 336, № 6, maddə 807, № 8, maddə 966, № 10, maddələr 1226, 1229, № 12, maddə 1571; 2016, № 1, maddə 176, № 2 (II kitab), maddə 373, № 3, maddə 622, № 5, maddə 957, № 6, maddə 1209, № 10, maddə 1723, № 11, maddə 1919; 2017, № 2, maddələr 285, 302, 319, № 6, maddələr 1223, 1226; 2018, № 11, maddələr 2429, 2456, № 12 (II kitab), maddələr 2739, 2759; 2019, № 11, maddə 1853; 2020, № 3, maddə 368, № 7, maddə 980, № 10, maddə 1301; 2021, № 3, maddə 268, № 6 (IV kitab), maddə 689, № 9, maddə 1062; 2022, № 3, maddə 253, № 7, maddə 812) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "Orta ixtisas təhsili müəssisələri" bölməsinə aşağıdakı məzmunda 48-ci və 49-cu hissələr əlavə edilsin:

"48. Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci

49. Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kolleci".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 251** **Bakı şəhəri, 31 iyul 2023-cü il**

**"Ödənişli arxiv xidmətlərinin siyahısının və onların göstərilməsinə görə xidmət haqlarının məbləği"nin təsdiq edilməsi haqqında**

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1812 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Ödənişli arxiv xidmətlərinin siyahısı və onların göstərilməsinə görə xidmət haqlarının məbləği" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 252** **Bakı şəhəri, 31 iyul 2023-cü il**

**"Dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət arxiv xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə**

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1812 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət arxiv xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 253** **Bakı şəhəri, 31 iyul 2023-cü il**

**"Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 21 noyabr tarixli 402 nömrəli Qərarı; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 130; 2010, № 3, maddə 264; 2020, № 4, maddə 480, № 11, maddə 1401; 2021, № 3, maddə 275; 2022, № 8, maddə 1013, № 9, maddə 1098) ilə təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin ağıldankəm uşaqlar üçün internat evlərində və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində vətəndaşların qida normaları"nda cədvəldən sonrakı mətndə üçüncü abzas dördüncü abzas hesab olunsun və həmin mətnə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 519 nömrəli Qərarına uyğun olaraq Fərdi Reabilitasiya Proqramı ilə müəyyən edilən və kənar şəxslərin daimi kömək və qayğısına ehtiyacı olan əlilliyi olan şəxsləri reabilitasiya müəssisələrində müşayiət edən şəxslər (1 nəfərdən çox olmamaqla) üçün qida normalarının "Ümumi tipli əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələri (böyüklər)" üçün müəyyən edilmiş normalara uyğun tətbiq edilməsi dövlət büdcəsi hesabına təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Daşınmaz əmlak tarifləri aşağı salındı

## Bu tənzimləmə iqtisadi stimulları da gücləndirəcək

**Tarif (qiymət) Şurasının iclasında dövlətin sosial siyasətinə uyğun olaraq, tariflər tənzimlənərkən sosialyönümlülük nəzərə alınıb, iqtisadi əlverişlilik və xidmət səviyyəsinin yaxşılaşdırılması kimi amillər əsas götürülüb. Tənzimləmələrdə əsas istiqamətlər sırasında isə şəhid ailəsi üzvlərinin, hərbi əməliyyatlar nəticəsində əlil olan hərbi qulluqçu və mülki şəxslərin daşınmaz əmlaklarına hesablanan xidmət haqqına 50 faiz güzəşt tətbiq edilib. İşğalçıdan təmizlənən ərazilərdə yerləşən daşınmaz əmlak obyektləri üzrə xidmət haqqına da eyni faizli güzəşt tətbiq olunub.**



Sahibkarlığa dəstək və biznes mühitinin inkişafı tədbirləri çərçivəsində edilən güzəştlər çərçivəsində isə sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar üzrə tariflərdə 75-86 faiz azalma tətbiq edilib. Eyni zamanda, kiçik və orta biznesin dəstəklənməsi baxımından sahəsi min kvadratmetrə qədər olan əmlakların tarifləri azaldılıb. İqtisadi fəaliyyətin canlanmasına da əlavə stimul yaradılıb. Belə ki, yeni tariflərə uyğun olaraq, qeyri-yaşayış sahələri üzrə xidmətlərdə xərclər orta hesabla 5,2, aqrar sahənin dəstəklənməsi məqsədilə kənd təsərrüfatı təyinatlı torpaqlar üzrə tariflər isə orta hesabla 73 faiz aşağı salınıb.

**Beləliklə:**

**– kənd təsərrüfatı təyinatlı torpaqların qeydiyyat tarifləri sahə 5 hektaradək olduqda 100 manat, 5 hektardan çox olduqda, hər əlavə 1 hektar üçün əlavə olaraq 10 manat təşkil edir;**

**– sahibkarlığa dəstək və biznes mühitinin inkişafı məqsədilə sənaye sahələri 1 hektaradək olduqda 500 manat, 1 hektardan çox olduqda, hər əlavə 1 hektar üçün əlavə olaraq 100 manat xidmət haqqı hesablanır;**

**– kiçik və orta biznesin stimullaşdırılması üçün min kvadratmetrə qədər olan qeyri-yaşayış sahələri üzrə (bina, tikili, qurğular və onların tərkib hissələri) tariflərdə əmlakın yerindən və sahəsindən asılı olaraq 1-8 faiz azalma tətbiq edilir.**

İstər sahibkarlığın, istərsə də aqrar sektorun dəstəklənməsi məqsədilə müvafiq tarif qiymətlərinin azaldıması bu sahələrdə biznesin qurulması və inkişafına, innovativ ideyaların reallaşdırılmasına xidmət edir. Xatırladaq ki, respublikamızda mikro, kiçik və orta sahibkarlıqda idarəçiliyin müasir tələblərə uyğunlaşdırılması, kiçik və orta biznesin inkişafının dəstəklənməsi, eyni zamanda, bu sahələrin ölkə iqtisadiyyatında rolunun artırılması dövlət başçısı tərəfindən hazırda qarşıya qoyulan prioritet vəzifələrdir.

Bəli, bu gün respublikada mikro, kiçik və orta sahibkarlıq subyektlərinin yaradılması və inkişafına xüsusi diqqət yetirilir. Bu məsələ iqtisadiyyatın tərəqqisində, şaxələnməsində mühüm istiqamət hesab edilir və bu sahənin dayanıqlı və davamlı inkişafa, məşğulluğun təmin edilməsinə, yoxsulluğun azaldılmasına, sahibkarlığın və innovasiyaların stimullaşdırılmasına verdiyi töhfə yüksək dəyərləndirilir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində hazırlanan ortamüddətli sosial-iqtisadi inkişaf strategiyasında da kiçik və orta sahibkarlığın ölkədə iqtisadi artımın və məşğulluğun əsas mənbəyinə çevrilməsi strateji hədəflərdən biri olaraq müəyyənləşdirilib.

Son illərdə ölkəmizdə kiçik və orta biznes subyektləri dövlətin geniş dəstək tədbirləri ilə əhatə olunub. Bu sektorun tənzimlənməsi, biznesə dövlət xidmətlərinin göstərilməsinin yaxşılaşdırılması, biznes maraqlarının müdafiəsi, bazarlara və maliyyəyə çıxışının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılıb və nəticədə müsbət göstəricilər əldə edilib.

Onu da qeyd edək ki, dövlətin sosial siyasətinə uyğun olaraq, qiymətlər tənzimlənərkən çoxmənzilli yaşayış binalarının inventarlaşdırılması üzrə tariflər 46-49 faiz azaldılıb. Xidmətin keyfiyyətinin və çevikliyinin artırılması üçün daşınmaz əmlakın dövlət reyestrindən məlumatların yoxlanılması və reyestrə məlumatın daxil edilməsi üzrə xidmət haqqı 30 manatdan 36 manatadək məbləğdə müəyyənləşdirilib. Ümumilikdə, daşınmaz əmlakla bağlı tariflərin sayı 79-dan 60-a endirilib. Xidmət sayının optimallaşdırılması bir sıra istiqamətlər üzrə xidmət haqqının aşağı salınmasına və ya tamamilə ləğv edilməsinə imkan yaradıb.

Tarif (qiymət) Şurası tərəfindən dövlət qeydiyyatına alınan daha 95 dərman vasitəsinin qiymətini də tənzimlənib. Belə ki, əhalinin sağlamlığı baxımından mühüm önəm daşıyan, sahibkarlar üçün idxalı iqtisadi cəhətdən səmərəli olmayan dərman vasitələri üzrə etibarlı təchizatın gerçəkləşdirilməsi məqsədilə aidiyyəti qurumların rəyi əsasında 46 dərman vasitəsinin qiyməti təsdiqlənib.

Daşınmaz əmlakın qeydiyyatı, texniki inventarlaşdırılması və kadastrı xidmətlərinin tarifləri tənzimlənərkən, müvafiq qanunvericiliyə edilən dəyişikliklər yeni xidmətlər üzrə tariflərin müəyyənləşdirilməsinə, mövcud tariflərin tənzimlənməsinə zərurət yaradıb. Bu zaman əsas məqsəd daşınmaz əmlak sahəsində idarəçilik sisteminin rəqəmsal texnologiyalar əsasında müasirləşdirilməsi, şəffaflaşdırılması, keyfiyyətli, çevik və etibarlı xidmətlərin göstərilməsi olub.

Tarif (qiymət) Şurasının iclasında xidmət tariflərinin optimallaşdırılmasına da baxılıb. Nəticədə tariflərin sayı 79-dan 60-a endirilib, xidmət sayının optimallaşdırılması bir sıra istiqamətlər üzrə xidmət haqqının aşağı salınmasına və ya tamamilə ləğv edilməsinə imkan yaradıb. Tarif (qiymət) Şurasının qərarına əsasən, qanunvericiliyə dəyişikliklər nəticəsində yaranmış yeni 9 xidmət üzrə 14 tarif müəyyənləşdirilib, 21 tarif mövcud səviyyədə saxlanılıb, 29 tarif tətbiq olunmadığı üçün ləğv edilib, 5 tarif alt qruplara keçirilərək ümumiləşdirilib.

Tarif (qiymət) Şurası tərəfindən yaşayış fondu üzrə qiymətlər də tənzimlənib. Belə ki, çoxmənzilli yaşayış binalarının inventarlaşdırılması üzrə tariflər hər bir kvadratmetr üçün çoxmənzilli binanın yerləşdiyi zonadan asılı olaraq 46-49 faiz azaldılıb. İlkin və təkrar texniki inventarlaşdırılma və sifarişlə həyata keçirilən yerquruluşu işləri üçün tarif çoxmənzilli yaşayış binalarının ümumi sahəsinin hər 1 kvadratmetr üçün 0,65 manat səviyyəsində müəyyənləşdirilib.

Mənzillər üzrə isə bu tariflər sahəsi 50 kvadratmetrədək (50 kvadratmetr daxil) olduqda Bakıda 40 manat, Abşeron, Sumqayıt və Gəncədə 35 manat, digər şəhər və rayonlarda 30 manat təşkil edir. Yaşayış fondunun sahəsi 50 kvadratmetrdən çox olduqda isə hər əlavə 1 kvadratmetr üçün anoloji olaraq 0,40, 0,32 və 0,30 manat əlavə olunur.

Tarif (qiymət) Şurası daşınmaz əmlak sahəsində göstərilən digər xidmətlər üzrə də tarifləri təsdiq edib. Bunlar torpaq tədqiqatlarının aparılması, xəritələşdirilməsi və sifarişçiyə təqdim olunması, texniki kadastr və yerquruluşu məlumatlarının və sənədlərinin (arxiv arayışları, texniki sənədlərin təsdiqlənən surəti) verilməsi, sxematik ünvan planlarının tərtibi və saird\ir.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Baş Prokurorluq Ermənistanın ekoloji cinayətlərini beynəlxalq müstəviyə çıxarır

**Araz və Oxçuçayın Ermənistan Respublikası ilə həmsərhəd bölgədə çirkləndirilməsinə dair məlumatlar üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunda araşdırma davam etdirilir.**



Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistanın iri mədən müəssisələri – Qacaran mis-molibden zavodu və Qafan filiz emalı kombinatı tərəfindən transsərhəd Oxçuçayın intensiv şəkildə çirkləndirilməsi, Yerasx (Arazdəyən) kəndində iri metallurgiya zavodunun Azərbaycan tərəfi ilə məsləhətləşmələr aparılmadan tikilməsi, bu zaman ətraf mühitin mühafizəsi normalarının pozulması əlavə tədbirlərin görülməsini zəruri edib.

Bununla əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı və Avropa Şurasına müraciət ünvanlanıb.

Müraciətdə BMT-nin Transsərhəd Su Məcraları və Beynəlxalq Göllərin mühafizəsi və Espoo (Ətraf Mühitə təsirin ölçülməsi) konvensiyalarının, eləcə də ətraf mühitin mühafizəsinin tələblərinə dönmədən riayət edilməsi, dağ-mədən obyektlərinin işinin düzgün təşkili normalarına əməl olunması və ətraf mühitə dəymiş ziyanın müəyyənləşdirilməsində ölkəmizin səlahiyyətli qurumları ilə əməkdaşlığın vacibliyi vurğulanıb.

***"Xalq qəzeti"***

# Milli Məclisin deputatları "humanitar fəlakət" təxribatını pisləyirlər

**Azərbaycan Respublikası Milli Məclisinin 40 deputatı Laçın–Xankəndi yolu və Fransa ilə bağlı açıq məktub yayıblar. Sənəddə deyilir:**

"Özlərini Qarabağda yaşayan erməni sakinlərin nümayəndələri kimi təqdim edən təxribatçıların və Ermənistan Respublikasının siyasi rəhbərliyinin yüklərin daşınması üçün yalnız Laçın yolunun üzərində dayanması məsələnin bilərəkdən siyasiləşdirilməsi və propaqanda kimi istifadə edilməsi məqsədi daşıyır. Azərbaycan hökuməti Qarabağın erməni sakinlərinin ehtiyaclarını operativ şəkildə qarşılamağa hazır olduğunu bəyan edib, o cümlədən ərzaq, dərmanlar və digər humanitar yüklərin daşınması üçün Azərbaycan Ağdam–Xankəndi yolunu təqdim edib. Bu, həm də Qarabağın erməni sakinlərinin Azərbaycana reinteqrasiyası üçün zəruri və qaçılmaz addımdır.

Təəssüflər olsun ki, erməni lobbisinin təsiri və müdaxiləsi nəticəsində fransalı deputatlar mütəmadi olaraq məsələnin mahiyyətini təhrif edən mövqe tutaraq, Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdürlər. Özünü hüquqi dövlət adlandıran Fransa rəsmilərinin belə tələblər irəli sürməsi insanlığa, mənəviyyata sığmayan çağırış, həmçinin beynəlxalq humanitar hüquqa hörmətsizlikdir".

*"Xalq qəzeti"*

# "Jewish News Syndicate" İsrail və Azərbaycan dostluğundan yazdı

**Bakı və Qüds arasında strateji tərəfdaşlıq qurulub. Hər iki xalq arasında münasibətlər tarixində ən yüksək səviyyəyə çatıb və daha da inkişaf edəcəyi gözlənilir.**


jns

NEWS Israel News

Israel and Azerbaijan are 'strategic partners,' Baku says

"We will remain allies and friends," added presidential representative Elchin Amirbayov.

ETGAR LEFKOVITS

Bu fikirlər Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun ABŞ-ın geniş oxucu kütləsinə malik "Jewish News Syndicate" nəşrinə açıqlamasında yer alıb.

Məqalə müəllifi diqqətə çatdırıb ki, iki xalq arasında münasibətlər dinlərarası əlaqələr üçün nümunəvi sayıla bilər və İsrail 1991-ci ildə dövlət müstəqilliyini elan etmiş Azərbaycanı tanıyan ilk ölkələrdən biri olmuş, 1993-cü ildən Bakıda öz səfirliyini açmışdır. İsrailin neft tələbatının təxminən 30 faizini Azərbaycan təmin edir, Azərbaycan isə İsrailin hərbi məhsullarının əsas alıcılarından hesab olunur və 2020-ci ildə Ermənistanla müharibədə həmin silahlar Azərbaycanın qələbəsinə töhfə verib.

Bildirilir ki, hazırda Azərbaycanda yaşayan yəhudilərin sayı 25-30 minə yaxındır və Azərbaycandan İsraılə miqrasiya etmiş yəhudilər öz tarixi vətənləri ilə sıx əlaqə saxlayırlar. Həmçinin 50-dək etnik qrupun dinc şəkildə birgə yaşadığı Azərbaycan bu ölkədə yaşayan yəhudi icması ilə yaxşı münasibətlərdən qürur duyur.

*"Xalq qəzeti"*

# Misir səfiri Qafqaz Müsəlmanları İdarəsində

**Dünən Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Misir Ərəb Respublikasının Azərbaycandakı səfiri Hişam Mohamed Nağı Abdel Həmidi ilə görüşüb.**



Söhbətdə şeyxülislam A.Paşazadə Azərbaycanla Misir arasında tarixən mövcud olmuş əlaqələrin əhəmiyyətindən, Misirin İslam dünyasında önəmli yerindən, habelə misirli alim və üləmaların dəyərli irsindən ətraflı danışıb.

Misir səfiri Hişam Mohamed Nağı Abdel Həmidi Azərbaycanda fəaliyyət göstərməkdən məmnunluğunu bildirib, ölkələrimiz arasında təkcə siyasi deyil, elmi, dini, ictimai sahələr üzrə də əlaqələrin yüksələn xətt üzrə irəliləməsindən şad olduğunu deyib. Şeyxülislam A.Paşazadəni Beynəlxalq Müsəlman Ağsaqqalları Şurasına üzv olması münasibətilə təbrik edən səfir üzvlük barədə sənədin əslini QMİ sədrinə təqdim etməkdən şərəf duyduğunu bildirib.

Diplomat, eyni zamanda, Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin himayəsi altında bu ilin oktyabrında keçiriləcək Dünya Fətva Evləri təşkilatının iclasına dəvət məktubunu şeyxülislam A.Paşazadəyə təqdim edib.

*"Xalq qəzeti"*

# Ermənistan Qarabağın erməni sakinlərinin reinteqrasiyasına əngəl törətməməlidir

**Vətəndaş cəmiyyəti təşkilatları Azərbaycan Respublikasının Qarabağ regionunun erməni sakinlərinin reinteqrasiyasının Ermənistan Respublikası tərəfindən əngəllənməsi haqqında bəyanat yayıb.**

Sənəddə 15 vətəndaş cəmiyyəti təşkilatlı beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan hökumətinin və qeyri-qanuni rejimin qalıqlarının öz siyasi məqsədlərinə çatmaq üçün yaratdıqları süni maneələrə cəlb edərək bildirir: "Çoxmillətli ölkə olan Azərbaycan ərazisində yaşayan ermənilərin və digər etnik azlıqların bərabər hüquqlar çərçivəsində, dinc şəkildə yaşaya və işləyə bilməsi üçün əlverişli mühit yaradır. Azərbaycan Respublikasının Konstitusiyası etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar şamil edir. Azərbaycan öz Konstitusiyasına, qanunvericiliyinə uyğun olaraq, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquq və təhlükəsizliyini də təmin edəcəkdir. Ermənistanın bir sıra məmurları tibbi evakuasiya üçün funksional olan Laçın yolu haqqında siyasi manipulyasiya və spekulyasiya yaratmağa çalışırlar. Bu iddialar tamamilə əsassızdır və təkzib edirik".

Sonda deyilir: "Beynəlxalq ictimaiyyət bilməlidir ki, Azərbaycan blokada yaratmır, əksinə, yardım təklif edir. Lakin qeyri-qanuni rejimin qalıqlarının təxribatları humanitar yardımdan imtina deməkdir. Biz Ermənistan hökumətini təxribatları dayandırmağa çağırırıq".

*"Xalq qəzeti"*

# Meşəli soyqırımı ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət

**Meşəli soyqırımından zərər çəkmiş insanlar beynəlxalq ictimaiyyətə açıq məktubla müraciət ediblər. Sənəddə bildirilir ki, Ermənistan silahlı qüvvələri tərəfindən soyqırımına məruz qalmış kəndin sakinləri müharibə cinayətkarı Vaqif Xaçaturyanı yaxşı tanıyırlar:**

– Onun əlləri dinc insanların – körpələrin, qadınların, qocaların qanına batıb. Amma müharibə cinayətkarı Vaqif Xaçaturyan ələ keçən kimi, bu təşkilatlar peyda olub, bir-birinin ardınca onun azad edilməsinə çağırışlar edirlər. Biz – Meşəli sakinləri bundan böyük hiddət keçiririk, bunu özümüzə qarşı təhqir, həqarət kimi qəbul edirik. Bu cür çağırışlar yolverilməzdir!



Müraciətin sonunda deyilir ki, Vaqif Xaçaturyanı azad etməyə çağırış edənlər Meşəli, Xocalı sakinləri qarşısında, Azərbaycan xalqı qarşısında utanmalı, xəcalət çəkməlidirlər: "Bəs bizim haqq və hüquqlarımız nə vaxt müdafiə edəcəksiniz? Bu cür hərəkətlər insani və mənəvi dəyərlərə sığan yanaşma deyildir. Beynəlxalq ictimaiyyətdən tələb edirik ki, Ermənistanı Azərbaycan xalqına qarşı insanlıq əleyhinə cinayətlər törətmiş şəxsləri cəzalandırmağa, onları təhvil verməyə məcbur etsin".

*"Xalq qəzeti"*

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası





**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası keçirilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov gündəliyə daxil edilənm məsələlər barədə məlumat verib. Sonra müzakirələr başlanıb. Gündəlikdə duran birinci məsələ – "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun səsə qoyularaq qəbul olunub.

Gündəlikdə duran digər məsələlər – "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında", "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında", Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) hesabatı, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi", "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 20 iyun tarixli Fərmanı ilə Baş nazirin müavini vəzifəsinə təyinat müzakirəyə çıxarılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasında müvafiq qanun və qərarlar qəbul edilib, bəzi qanunlara dəyişikliklər olunub, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi" təsdiqlənib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı muxtar respublikada həyata keçirilən tədbirlər barədə məlumat verib.

Bildirilib ki, 2023-cü ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən 7 qanun, 51 fərman, 97 sərəncam və 5 qərar, eləcə də, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini tərəfindən 49 sərəncam imzalanıb. 10 yanvar 2023-cü il tarixdə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası, 16 may 2023-cü il tarixdə isə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası çağırılıb.

Azər Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarını Ermənistan tərəfinin "bölgədə gərgin humanitar vəziyyət" iddialarına, Laçın sərhəd buraxılış məntəqəsinə "humanitar yük" adı altında konvoylar göndərməsinə münasibət bildirməyə çağırıb.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası öz işini başa çatdırıb.

*"Xalq qəzeti"*

# İƏT Xarici İşlər Nazirləri Şurasının virtual formatda növbədənkənar iclası olub

**İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının virtual formatda növbədənkənar iclası keçirilib.**

Bir sıra ölkələrdə "Qurani-Kərim"in təhqir olunması və yandırılması halları ilə əlaqədar keçirilən tədbirdə ölkəmizi Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Fariz Rzayev təmsil edib.

Nazir müavini tədbirdə çıxış edərək xarici ölkələrdə müqəddəs Quranın yandırılması və təhqir olunması hallarına yol verildiyini, bunun ifadə azadlığı adı altında təqdim olunması kimi məsuliyyətsiz hərəkətlərin qəbuledilməz olduğunu vurğulayıb, müvafiq dövlət qurumlarını islamofobiya ilə mübarizə aparmağa çağırış edib.

Növbədənkənar iclasın sonunda məsələyə dair müvafiq qətnamə qəbul edilib.

# Xüsusi Təyinatlıların İctimai Birliyi "Xalq qəzeti"ni təltif edib

**Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyi "Xalq qəzeti"ni peşəkar jurnalist fəaliyyətinə görə Fəxri Fərmanla təltif edib.**



Mükafatı redaksiyada qəzetin baş redaktoru Əflatun Amaşova təqdim edən İctimai Birliyin sədri, Azərbaycan Mətbuat Şurası idarə heyətinin üzvü Bəhruz Məmmədzadə bildirib ki, ordu və hərbi vətənpərvərlik mövzusunun mediada işıqlandırılması ilə bağlı "Xalq qəzeti"nin çoxillik zəngin təcrübəsi həmişə ölkə jurnalistləri üçün örnək olub. Qəzetin yaradıcı kollektivi ərazilərimizin işğaldan azad edilməsi zamanı Silahlı Qüvvələrimizin, eləcə də xüsusi təyinatlı bölmələrin göstərdiyi tarixi rəşadətinin canlı və parlaq salnaməsini yaradıb.

Vətən müdafiəçilərinin öncül dəstəsi olan Xüsusi Təyinatlıların İctimai Birliyinin təltifinin kollektiv üçün dəyərli olduğunu söyləyən baş redaktor Əflatun Amaşov qeyd edib ki, ölkənin etibarlı müdafiəsi, əsgər və zabitlərimizin nümunəvi xidməti, torpaqlarımızın bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş şəhidlərimizin əziz xatirəsi bundan sonra da qəzetin fəaliyyətində layiqli yer tutacaq.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid mükafatın təqdim edilməsində iştirak edib.

*T.RÜSTƏMLİ, "Xalq qəzeti"*

# "Euronews" Laçında bərpa-quruculuq işləri ilə bağlı süjet yayımlayıb

**"Euronews" telekanalı Azərbaycanın Laçında gördüyü bərpa-quruculuq işləri, Laçına qayıdan keçmiş məcburi köçkünlərlə bağlı reportaj hazırlayıb.**




Telekanal tərəfindən hazırlanan süjetdə deyilir:

"Azərbaycanın qərbində yerləşən Laçın şəhərində geniş bərpa-quruculuq işləri görülür. Baxdığınız hər yerdə Ermənistanla Azərbaycan arasındakı son müharibənin izlərini silmək səyləri göz qabağındadır", – deyə qeyd edilib.

Süjetdə Euronews-un beynəlxalq müxbiri Anelise Borges Laçına qayıdan keçmiş məcburi köçkünlərlə danışıb.

# Dövlət sərhədini pozan Ermənistan vətəndaşı saxlanıldı

**Avqustun 1-də Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən Azərbaycan–Ermənistan dövlət sərhədinin Laçın rayonunun Zabux kəndi ərazisindən keçən hissəsində dövlət sərhədini pozmuş Ermənistan vətəndaşı, 1962-ci təvəllüdlü Rəşid Beqleryan saxlanılıb.**

Bu barədə DSX-dən məlumat verilib.

# "Avesta"nın yazıldığı dağ – Müqəddəs Süleyman - Too

**Qırğızıstanın Oş şəhəri Mərkəzi Asiyanın qədim şəhərlərindən biridir. Şəhərin 2500 yaşı var. Minilliklər ərzində yerləşdiyi coğrafi məkana görə Böyük İpək Yolunun tranzit şəhəri olub. Yerli sakinlər səyyahlara, tacirlərə, karvan sahiblərinə qulluq etməklə çörəkpulu qazanıblar. Oş ticarət üçün əlverişli yer olduğundan tacirləri, cənətkarları, heyvandarları və əkinçiləri özünə cəlb edib.**



Yaşıl dağ yamaclarında yerləşən Oş şəhərinin ən nadir tarixi abidəsi Cüleyman-Too dağıdır. Bu müqəddəs dağ əsrlərlə şəhəri yaddelli düşmənlərdən qoruyub və uzun illərdir ki, zəvvarların və turistlərin sevimli yerinə çevrilib. 2009-cu ildə Süleyman-Too UNESCO-nun Ümumdünya irsi siyahısına salınıb.

Qərbdən Şərqə uzanan Süleyman-Too dağının uzunluğu 11 min 140, eni 560, hündürlüyü 1162 metrdir. Dağ qədim zamandan sakral əhəmiyyətə malik olub, bunu qorunub saxlanan petroqliflər sübut edir.

Fərqanənin Ərəb xilafətinin tərkibinə daxil olduğu dövrdə Süleyman-Too haqqında ilk yazılı məlumata ərəb coğrafiyaşünası əl-İstaxrinin "Dövlətlərin yol tarixi" (X əsr) əsərində rast gəlinir. XVI əsrdə dağ Bara-Kux, conra isə XX əsrə qədər Taxtı-Süleyman adlanıb.

Dağın zirvəsində "Taxtı-Süleyman" məscidi yerləşir, tarixçilər bu məscidi Baburun hakimiyyəti dövrünə aid edirlər. Dağın ətəyində isə XVI əsrə aid "Abdullaxan ravatı" məscidi və Asaf ibn Burxiya (XVIII əsr) mavzoleyi var. Süleyman-Too dağında yeddi mağara da var ki, bunlardan ən məşhuru Çakka-Tamar və Tepeunkur mağaralarıdır. Dağdakı ən kiçik mağara Tamçı Tamar adlanır. Bu mağaranın lap dərinliyində Quranı xatırladan kitab formasında daş var. Bu daşın üzərinə əlini qoyub nə arzu etsən, çin olur. Bu mağaraya düşmək isə hər igidin işi deyil. Mağaraların divarlarından axan su damcılarına Süleymanın göz yaşları deyilir. Dağın sağ ətəyində orta əsrlərə aid hamam var.

Süleyman-Too haqqında saysız əfsanələr dolaşır. Deyirlər ki, bu dağda Məhəmməd Peyğəmbər namaz qılıb, ona görə dağın zirvəsində ərəb hərfləri ilə yazılan "Allah" sözünü oxumaq olur. Dağın zirvəsində, həmçinin böyrü üstə uzanmış insan silueti görünür. Rəvayətə görə bu, Süleyman peyğəmbərin siluetidir. Yerli sakinlər danışır ki, Süleyman peyğəmbər öz ordusu ilə səyahət edərkən bu dağa çatır və orduya dayanmaq əmri verir. O, əli ilə "Xoş!", yəni "Kifayətdir!" işarəsini göstərir. Bu dağ o gündən Süleyman-Too, şəhər isə Oş adlanır.

X əsrdən başlayaraq, Asiya qitəsinin hər yerindən zəvvarlar bu dağa ziyarətə gəlir. Belə hesab olunur ki, Süleyman peyğəmbər bu dağda Allaha dualar edib və daşların üzərində onun alnının və dizlərinin izləri qalıb. Hər bir müsəlman üçün müqəddəs olan bu yerdə Əmir Teymurun nəticəsi, Böyük Moğollar Sülaləsinin banisi Məhəmməd Zəhirəddin Babur (1483-1530) özünə mehrablı kiçik bir hücrə inşa etdirib. İndi həmin yerdə ağ daşdan məscid tikilib və arxiv mənbələrinə görə "Baburun evi" ni xatırladır.

Əfsanəyə görə, 5 zirvəsi olan Süleyman-Too ali qüvvələrlə yer arasında əlaqə yaradır. Dağın zirvələri Taxtı-Süleyman və ya Buura-Too ( Dəvə-dağ), Şor-Too (Duz dağı), Kattama-Too (Qatlama dağ), Ruşan-Too (Ən yüksək) və Eer-Too (Yəhər dağ) adlanır. Dağın zirvələrində və yamaclarında çoxsaylı qayaüstü rəsmləri olan mağaralar turistlərin diqqətini cəlb edir. Dağda insan və heyvan, həndəsi fiqurları əks edilən 101 obyekt var. Burada zəvvarların sitayiş etməsi üçün coxlu məkan mövcuddur ki, onların 17-də sonsuzluqdan, baş və bel ağrılarından əziyyət çəkənlər şəfa tapır.

Süleyman-Too dağında Bel-Taş adlanan maili yüksəklik müalicəvi əhəmiyyətə malikdir. Kim bu yerdə üç dəfə beli üstə aşağı sürüşsə, oynaqlarındakı və onurğasındakı ağrılara son qoyular. "Ene beşiyi" ("Ana beşiyi") adlanan yerdə övladı olmayanlar uşaqları olsun deyə dilək tuturlar.

Turistlərin ən çox sevdiyi yerlərdən biri dağdakı mağara-muzeydir. İkimərtəbəli muzeyin birinci mərtəbəsi sonradan genişləndirilib, ikinci mərtəbə isə öz təbii halında saxlanılıb. Bu muzeydə 35 min ekcponat- təbii sənət əsəri nümayiş etdirilir. Muzeydəki bəzi artefaktların yaşı 3000 ildən çoxdur. Mağara- muzeyin qarşısındakı meydançadan Oş şəhərinə gözəl mənzərə açılır.

Süleyman-Too oda sitayiş edən insanlar üçün də müqəddəs yer sayılıb. Bəzi tarixçilər bildirir ki, zərdüştilik dövründə Zərdüşt bu dağda yaşayıb və məşhur "Avesta"nı burada yaradıb. Dağda od və su məbədinin mövcudluğu buna sübutdur.

Mərkəzi Asiyada müqəddəs kadamjay, ərəb dilindən tərcümədə "Müqəddəsin izi" adlanan Süleyman-Too əsrlər boyu minlərlə insanın arzularını çin edib, onlara şəfa verib.

Xatırladırıq ki, qədim Oş şəhəri 2019-cu ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olub.

***Qulu KƏNGƏRLİ,***
***"Xalq qəzeti"nin xüsusi müxbiri***

**Bişkek**

# Böyük türkmən şairi Məxdumqulu Fəraqi

**Türkmən ədəbiyyatının görkəmli nümayəndəsi, türkmən ədəbi dilinin yaradıcısı Məxdumqulu Fəraqi 1733-cü ildə türkmən Kopetdağın ətəyində, Ətrak çayının hövzəsində yerləşən Hacı Qovuşan kəndində anadan olmuşdur.**



Məxdumqulunun ailəsi oturaq Göklən tayfasının, Gerkez qəbiləsinin Qışıq qoluna aiddir. Hələ yeniyetməlik çağlarında şeir yazmağa başlayan, özünə Fəraqi ləqəbini götürüb. Atasının zəngin kitabxanası olub, buradakı ərəb və fars dillərindəki kitabları böyük həvəslə oxuyub.

Bundan başqa Məxdumqulu uşaqlıqdan zərgərlik və dəmirçiliklə də məşğul olub. Əvvəlcə Buxara xanlığında Qızıl-Ayağdaki İdris-Baba mədrəsəsində təhsil alıb, 1754-cü ildə Buxaranın məşhur Kəkildaş mədrəsəsində təhsilini davam etdirib. Burada o, öz dövrünün savadlı adamlarından sayılan mövlana Nuri-Kazım ibn Baharla tanış olub və onunla birlikdə səyahətə çıxaraq Özbəkistan, Tacikistan, Əfqanıstanı keçərək Hindistanın şimalına gəlibdir.

1757-ci ildə hər ikisi o dövrün elm mərkəzlərindən biri və çoxlu sayda mədrəsəsi olan Xivə şəhərinə gəlirlər. Burada Məxdumqulu Şirqazi xanın 1713-cü ildə tikdirdiyi mədrəsəyə daxil olub. 1760-ci ildə atasının ölümü ilə əlaqədar Məxdumqulu vətənə qayıdıb.

Atasının ölümü ilə bərabər, iki böyük qardaşının ölümü şairə ağır zərbə olub. Qardaşlarının itkisi ilə bağlı nisgil Məxdumqulunun şeirlərində dərin iz buraxmışdır. Şairin məhrumiyyətləri bununla bitmir. Məxdumqulu çox sevdiyi gözəl bir qızla evlənir, lakin ailənin iki oğlu uşaq yaşlarında vəfat edirlər. Həyatındakı bu ağrı və kədər onun poeziyasına təsir göstərib.

Məxdumqulu səyahət etməyi çox sevirdi. 1760-cı ildən başlayaraq, ömrünün sonuna kimi bir çox məmləkətləri ziyarət edir. Əvvəlcə Manqışlaqa, sonra Həştərxana, oradan da Azərbaycana gəlir. Məxtumqulu ömrü boyu çox sayda Yaxın və Orta Şərq ölkələrinə səfərlər edibdir.

Məxdumqulu poeziyasının əsas nailiyyəti türkmən klassik ədəbiyyatını xalqın zəngin dili və folkloru ilə yaxınlaşdırmasındadır. O həmçinin türkmən ədəbiyyatını ərəb və fars təsirlərindən xeyli azad edib.

Şair 1783-cü ildə vəfat edib. Məxdumqulu böyük bir əraziyə səpələnmiş türkmən qəbilələrinin birləşməsini istəyirdi. Bu ideya onun yaradıcılığında mühüm yer tutmuşdur.

Filologiya üzrə elmlər doktoru Salidə Şərifova yazır ki, xalq ruhunun tərcümanına çevrilmiş Məxdumqulu Fəraqi türkmən milli şüurunun və türkmən dövlətçiliyinin ideoloji əsaslarının formalaşmasında xüsusi rol oynayıb. O, türkmən birliyi ideyasını və türkmənlərə ortaq milli şüur aşılayan fikirləri şeirlərinin əsas məğzinə çevirməyi bacarıb.

Məxdumqulunun adlı-sanlı türkmən xanlarının, bəylərinin, sərkərdə və döyüşçülərinin qəhrəmanlıqlarının tərənnüm edildiyi şeirlərində türkmən tayfalarının daxili çəkişmələrə və müharibəyə qarşı birləşməsi arzusu özünü bürüzə verir. Onun belə şeirlərindən biri də Əhməd şah Dürranini vəsf edildiyi şeiridir. Ustad şair bu şeirlərdə müstəqil türkmən dövlətinin birliyi arzularını əks etdirirdi:

**Qəmdən uzaq olar, qəlbi dağlanmaz,**
**Yıxar dağı-daşı, yolu bağlanmaz.**
**Başqa bir elatda könlü saxlama,**
**Maxdımqulu, susmaz dili türkmənin.**

Məxdumqulu ümumtürk folklorunu mənimsəyən şair-aşığa çevrilmişdir. Qeyd etmək lazımdır ki, 10 mindən artıq sətri özündə cəmləşdirən Məxdumqulu irsinin 90 faizi qoşuq janrına aiddir.

Məxdumqulu türkmən ədəbi dilinin banisidir. Ərəb-fars ölçülərindən (əruz) imtina etmiş türk dünyasının ilk şairlərindən biridir. Məxdumqulu xalq ənənələrinə malik olan heca vəznini yaradıcılığının əsasına çevirib. Məsələn, "Görüm görülməyən yerdə" şeiri heca vəzninin parlaq nümunəsidir:

**İzzət, hörmət sın etməyin,**
**Görüm görülməyən yerdə.**
**Ağıllı olan söz açarmı?**
**Növbət verilməyən yerdə.**

Şairin Azərbaycana səyahət etdiyi zamanı gördüyü Nuxaya (indiki Şəki) həsr etmiş olduğu "Yaylaqları var" şeirində şəhərin füsunkar təbiətinin vəsfi əksini tapmışdır:

**Gedək seyrə çıxaq Nuxa mülkünü**
**Könülü oxşayan yaylaqları var.**
**Dərib qoxulayaq qönçə gülünü,**
**Yaşıl reyhanları, zanbaqları var.**

Sonda qeyd etmək olar kı, yaradıcılığı ilə klassik türkmən şeirinin əzəmətini təsdiqləyən şair yalnız türkmən ədəbiyyatında deyil, dünya ədəbiyyatında da əlçatmaz poeziya nümunələri yaratmağa nail olmuşdur.

***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

# TÜRKSOY rəhbərliyi ilə müzakirə

**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda təşkilatın prezidenti Günay Əfəndiyeva TÜRKSOY-un Baş katibi Sultan Raev ilə görüşüb.**



Fonddan bildirilib ki, görüşdə müasir dövrdə ortaq köklərə, mədəniyyətə mənsub türk xalqlarının bir-biri ilə daha geniş əlaqələndirilməsi üzrə birgə əməkdaşlığın vacibliyindən söz açılıb.

Türk dünyasının çoxtərəfli inteqrasiya prosesində ümumtürk mədəni birliyi önəmli məsələlərdən biri kimi qiymətləndirilib. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun və bu il 30 illiyini qeyd edən TÜRKSOY-un qarşılıqlı fəaliyyətlərindən, türk xalqlarının görkəmli şəxsiyyətlərinin yaradıcı irsinin tanıdılması istiqamətində həyata keçirilən layihələrindən bəhs olunub.

TÜRKSOY tərəfindən Şuşa şəhərinin "2023-cü il Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması vurğulanıb. Şuşanın tarixi və mədəni irsinin təbliği yönündə Fond tərəfindən müxtəlif ölkələrdə "Şuşa günləri"nin keçirilməsi yüksək dəyərləndirilib.

Görüş Fond ilə TÜRKSOY arasında tərəfdaşlığın daha da gücləndirilməsinə və gələcək birgə layihələrə dair müzakirələrlə davam edib.

***"Xalq qəzeti"***

Osmanlı sultanları

**Hörmətli oxucular! Biz "Xalq qəzeti" olaraq sizə dünya tarixinin ən qüdrətli imperiyalarından biri olan Osmanlının ilk iki qurucusu – Osman və Orxan Qazi barədə ötən nömrələrimizdə məlumat vermişik.**

# İmperiyanı 5 dəfə böyüdən Sultan I Murad

Bu dəfə 27 illik hakimiyyəti dönəmində Osmanlı torpaqlarını 96 mindən 500 min kvadrat kilometrə çatdıran, faktiki olaraq ölkəsinin hüdudlarını Anadoludan Rumelinə qədər genişləndirən, gənc Osmanlı dövlətini uğurlu idarəçilik sayəsində daha da gücləndirən I Muradın (1326-1389-cu illər) həyatı və fəaliyyəti barədə söz açacağıq. Qeyd edək ki, o, Osmanlı tarixində Murad Xudavəndiyar (Allahın dostu-red) kimi tanınaraq anılır.

Muradın cəmi 12 yaşı olanda atası Orxan bəy İzmitin fəthinə çıxmazdan öncə onu Bursa sancaqbəyi təyin edib.




Və yeniyetmə Murad himayədarı böyük sərkərdə Lələ Şahin ağa ilə birlikdə Bursaya göndərilib. Burada o, ağlı, hünəri və qeyrəti ilə ilk gündən xalq tərəfindən sevilməyə başlayıb.

1357-ci ildə Rumeli fatehi kimi tanınan qardaşı Süleyman paşa vəfat edib və bu ərazinin idarəçiliyi də I Murada tapşırılıb. O, burada olduğu beş il ərzində həm ordusunu qüvvətləndirib, həm də əhalinin maddi rifahını yaxşılaşdırmağa çalışıb.

1361-ci ilin yazında şahzadə Murad əmrindəki Rumeli hərbi birlikləri ilə birlikdə Ədirnəyə hücuma keçib. Şəhərin 55 kilometr şərqində qərargah qurub və Şahin Paşa idarəsindəki ordunu qala üzərinə göndərib. Ədirnə təkfuru Sazlıdərə istiqamətində türklərin önünü kəsməyə çalışsa da, məğlub olaraq geri çəkilib və gecə vaxtı döyüş meydanından qaçıb.

1361-ci il mayın 5-də Ədirnə əhalisi şəhəri Osmanlı birliklərinə təslim edib. Şahzadə Murad hərbi dəstələrin başında Qum qalası qapısından şəhərə daxil olub. Lakin burada çox qalmayıb Şahin Paşa ilə birlikdə Bolqarıstan çarlığına aid Plovdiv bölgəsinə yeni səfərə çıxıb. Ancaq burada olarkən Bursa qazısı Çandarlı Qara Xəlil Əfəndidən atasının vəfatı xəbərini alıb. 1362-ci ildə Osmanlı taxt-tacına sahib olub. Ədirnəni dövlətinin paytaxtına çevirib. Roma papası I Muradın dövlətinin sərhədlərini genişəndirməsindən narahat olub və 1366-cı ildə səlibçilər Amadey VI Savoyskinin rəhbərliyi ilə türklərin əleyhinə yürüşə çıxıblar. Onlar Qallipoli yarımadasını ələ keçiriblər, lakin bir il keçməmiş türklər oranı yenidən geri qaytardılar.

I Muradın həyatı at belində, ağır döyüşlərdə keçirdi. O, 1371-ci ildə Maritsa çayı üzərindəki döyüşdə serb knyazlarını darmadağın edib və Makedoniya şəhərləri olan Drama, Kjavala və Sereni ələ keçirib. Bundan sonra Samaovoda bolqar və serblərin birləşmiş ordularını məğlub edib. Serb və bolqar knyazlarının çoxu I Murada tabe olaraq onun vassalına çevriliblər.

1380-cı illərdə I Murad Qərbə doğru yürüşlərini davam etdirib. 1385-ci ildə bolqarlar Sofiya türklərə təslim olub. Bu zaman Tokat tərəfdən Qaraman oğullarının birgə qoşunları hücum etdiyini eşidib. 1386-cı ildə Konya ətrafında rəqib qoşunları darmadağın edilib. 1389-cu ildə Murad oğlu Bəyazidlə Kosovo yaxınlığındakı döyüşdə şimali serb knyazları üzərində qələbə qazanıb. Lakin 63 yaşlı hökmdar bu ağır döyüşdə həlak olub. Şair Əhmədinin yazdığı "Qəzanamə"yə görə, bir neçə adamıyla birlikdə döyüş meydanını gəzən Sultan Murad, cəsədlər arasında gizlənən Miloş Kobiloviç tərəfindən xəncərlə yaralandı və bir müddət sonra vəfat etdi.

Sultan Muradın yaralandığı və öldüyü yerə Hüdavəndigar Məşhədi adı verilən türbə inşa olundu. I Murad ilk sultan ləqəbi alan Osmanlı hökmdarı sayılır. 1383-cü ildə onun adı sikkələrdə artıq sultan kimi qeyd edilib. O, Osmanlını güclü bir dövlətə çevirə bilib.

I Muradın iqtidarı dönəmində ənənəvi səlcuq idarəçiliyi tədricən Bizans və Misir məmlüklük qanunları ilə əvəz olunub. Muradın hakimiyyətinin erkən illərində təyin etdiyi Xəlil paşa 1387-ci ildə dünyasını dəyişənədək bu vəzifəni uğurla yerinə yetirib və xalq tərəfindən sevilərək Böyük vəzir adlandırılıb.

I Muradın dövründə müharibələr zamanı əldə edilən hərbi qənimətin beşdə biri xəzinəyə ayrılırdı ki, bu da dövlətin əsas gəlir mənbəyi sayılırdı. Bu vəsait hesabına nizami ordu saxlamaq, qalalar və saraylar inşa etmək, məscid və minarələr ucaltmaq mümkün olmuşdu.

Böyük vəzir Xəlil paşanın məsləhəti ilə, təxminən, 1370-ci illərdə yeniçərlər korpusu yaradıldı. Onlar əvvəlcə hökmdarın cangüdəni vəzifəsini yerinə yetirirdilər. Sonradan ordunun elit hissəsinə çevrildilər.

I Murad hamisi Lələ Şahin paşanı Rumelidə ilk bəylərbəyi təyin etmişdi. Bununla da Avropa ərazisində ilk Osmanlı dövləti qurulmuşdur.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

# Qədim türk xalqı – çuvaşlar

**Çuvaşlar təxminən 2 milyon nəfərdən ibarət qədim türkdilli xalqıdır. Ehtimala görə, "Çuvaş" suvar sözündən yaranıb. Bu sözün digər türk dillərində şox işlənən "yavaş" sözündən gəldiyi də ehtimal olunur. "Çavaş" sözü tatarca "çıvaş" olub "sakit, təvazökar, sülhsevər" deməkdir. Özlərini "çavaş" adlandıran çuvaşların əksəriyyəti Çuvaş Muxtar Respublikasında yaşayır, digər bir qismi isə qonşu Tatarıstan və Başqırdıstan muxtar respublikalarında, Qərbi Sibirdə və başqa ərazilərdə məskunlaşıb.**



Çuvaşlar eramızdan əvvəl Orta Asiyadan Şərqi Avropaya köç ediblər. İdil (Volqa) çayı ətrafında məskunlaşdıqdan sonra digər türkdilli tayfalar – hunlar, xəzərlər, peçeneqlər, bolqarlarla qaynayıb-qarışıblar.

1237-ci ildə Volqa Bulqar dövləti monqol-türk ordusu tərəfindən darmadağın edilib. Sonralar həmin bölgədə yaradılmış Qızıl Orda dövlətinin sərhədləri indiki Çuvaşıstan ərazisini əhatə edirdi . XIV əsrdə Qızıl Orda dövləti parçalandı və çuvaş torpaqları Qazan xanlığının tərkibinə daxil olundu. Daha sonra Kazan xanlığı 1552-ci ildə rus çarı İvan Qroznı tərəfindən dağıdıldı. Bu tarixdən sonra bütün torpaqlarını itirərək ruslara xərac verməyə məcbur olan əksər kasıb çuvaş kəndliləri əkinçilikdən əl çəkərək fəhlə və nəqliyyatda işləməyə başladılar. İş axtaran çuvaşların bir qismi Türkiyəyə köçüb. 1925-ci il aprelin 21-də Çuvaşıstan Muxtar Sovet Sosialist Respublikası yaradılıb. Paytaxtı Çeboksarı şəhəridir.




Çuvaşların əsas ənənəvi məşğuliyyət növü əkinçilikdir. Heyvandarlıq yem torpaqları olmadığı üçün zəif inkişaf edib. Uzun müddət arıçılıqla da məşğul olublar. Burada taxta oyma (qablar, xüsusən də pivə qabları, mebel, dulusçuluq, toxuma, tikmə, naxışlı toxuma (qırmızı-ağ və rəngli naxışlar), həmçinin ip istehsalı və digər sənətkarlarlıq növləri inkişaf edib.

Çuvaş xalqının mədəniyyəti özünəməxsusluğu ilə seçilir. Bayram günlərində müxtəlif rəngli dekorativ baş geyimlərindən istifadə edilir. Qızlar boncuklu tikmə və gümüş sikkələrlə bəzədilmiş yuvarlaq papaqlar taxırlar. Evli qadınlar hər zaman başlarını çiynindən aşağıya qədər olan, naxışlı, ağ rəngli nazik kətan parçadan hazırlanan sürpan ilə örtürlər. Sikkə, muncuq və mərcandan hazırlanan bu zərif baş geyimləri çuvaş qız və gəlinlərinə çox yaraşır.

***Fidan HÜQUQQIZI,***
***"Xalq qəzeti"***

# Ortaq köklər, birgə hədəflər, eyni maraqlar

## Bakıda Özbəkistan Mədəniyyəti Günlərinə start verildi

**Azərbaycanda və Özbəkistanda qarşılıqlı olaraq mədəniyyət forumlarının keçirilməsi Prezident İlham Əliyevin ötən ilin iyununda qardaş ölkəyə dövlət səfəri zamanı Prezident Şavkat Mirziyoyevlə görüşündə əldə olunmuş razılıq əsasında reallaşır. Qeyd edək ki, iki qardaş ölkə arasında mədəni əlaqələrin tarixi əsrlərcə əvvələ gedib çıxır.**



Özbək ədəbiyyatının banisi Əlişir Nəvai böyük Nizami Gəncəvinin əsərlərindən ilham alaraq onu "şairlərin şahı" adlandırması, XV əsrdən sonra isə Nəvainin əsərlərinin Azərbaycan ədəbiyyatına, o cümlədən Füzuli, Kişvəri kimi nəhəng Azərbaycan klassiklərinin yaradıcılığına təsirinin etirafı qürurverici faktlardır. Bu gün Daşkənd və Bakıda dahi əcdadlarımız Nizami Gəncəvi və Əlişir Nəvainin abidələri daim ziyarət edilir. Əhməd Fərqaninin və Əbu Reyhan Bürüninin elmi əsərlərində Azərbaycanın bir çox şəhərləri xatırlanıb, bu şəhərlərdə Şərq və Qərb sivilizasiyalarının bir-birinə qarşılıqlı təsir göstərdiyi vurğulanıb.

Dövlət başçımızın ötənilki Daşkənd səfəri zamanı Özbəkistan Prezidenti qardaş münasibətlərimizi xarakterizə edərək deyib: "Özbəkistanda Azərbaycan ilə ənənəvi dostluq, etimad və qarşılıqlı anlaşma münasibətlərinə xüsusi qiymət verilir. Bu münasibətlərin əsasını ortaq mənəvi dəyərlər, din, oxşar mədəniyyətlər və dil təşkil edir. Xalqlarımızı çoxəsrlik tarix bağlayır. Bizim Şərqşünaslıq İnstitutunun fondlarında Nizami, Xaqani, Tusi, Füzuli, Xətai və bir çox başqa Azərbaycan şairlərinin və mütəfəkkirlərinin onlarca nadir əlyazmaları qayğı ilə qorunub saxlanır. Füzulinin əlyazmalarından birini mən bu gün hörmətli İlham Heydər oğluna hədiyyə etdim".

Bəli, hər iki xalq, beləcə, bir-birinin mədəniyyətindən bəhrələnib, bir-birinin mədəniyyətinə və onun inkişafına özünəməxsus təsir göstərib.

Ulu öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərində özbək lideri Şərəf Rəşidovla, 90-cı illərdə isə İslam Kərimovla dostluğu bugünkü sıx mənəvi birliyimizin təməlini qoyub. Onlar birbaşa, möhkəm əlaqələr yaratmağa çalışırdılar. 1979-cu ildə Azərbaycanda keçirilən Özbəkistan ədəbiyyatı və incəsənəti günlərində Heydər Əliyev çox məşğul olmasına baxmayaraq, daim tədbirlərə qatılıb. Ondan 1 il sonra Özbəkistanda Azərbaycan ədəbiyyatı və incəsənəti günləri təmtəraqla keçirilib.

Ötən il Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri zamanı Daşkəndin mərkəzində Ulu öndərin adına yaradılan meydanın açılışı onun xalqına ehtiramın təzahürüdür. Həmin tədbirdə Özbəkistan Yazıçılar Birliyinin üzvü, əslən Şuşadan olan, hazırda Sırdərya vilayətində yaşayan, qardaş ölkənin "Dostluq" ordeni ilə təltif olunmuş şair Əli Nəzərli əlaqələrimizə yeni nəfəs, yeni ruh verildiyindən məmnunluğunu poetik dillə ifadə etdi:

**Azərbaycan, Özbəkistan,**
**Bir ürəkdir, bir candır.**
**İkisi də bizim üçün**
**Əziz, doğma məkandır.**

Müstəqillik illərində Azərbaycan-özbək elmi, ədəbi əlaqələri geniş araşdırılıb, bədii əsərlərin tərcüməsi həyata keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev ölkələrimiz arasında əlaqələrin, xüsusilə də humanitar sahədə əməkdaşlığın əhəmiyyətini önə çəkib: "Biz ölkələrimiz arasında humanitar sahədə çox yüksək qiymətləndiririk. Bu, tamamilə təbiidir, çünki xalqlarımız qardaş xalqlardır, yaxın xalqlardır. Biz özbək ədəbiyyatını, musiqisini, mədəniyyətini çox sevirik. Yəni, bunlar sizin üçün olduğu kimi, bizim üçün də əziz və doğmadır".

Xüsusi qeyd olunmalıdır ki, Azərbaycan mahnıları Özbəkistanda, özbək musiqisi isə Azərbaycanda çox məşhurdur. Təsadüfi deyil ki, ötən il əslən soydaşımız olan özbək müğənnisi Nəsibə Abdullayevaya Azərbaycanın "Xalq artisti" fəxri adı, eləcə də Haşimjon İsmayılov, Əli Heydər Nəsirli və Kamoliddin Urinbayevə "Dostluq" ordeni verilib. Habelə Gülyanaq Məmmədova Özbəkistanın "Xalq artisti" fəxri adı, Şahin Mustafayev, Ramiz Əskərov və Almas Binnətova isə "Dostlik" ordeni təltif ediliblər. Eyni zamanda, ötən ilin oktyabr ayında Daşkənd, Buxara, Nəvai və Səmərqənd şəhərlərində "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri" keçirilib.

Bu günlərdə jurnalist dostlarımdan biri Bakının "Gülüstan" sarayında keçirilən özəl bir tədbirdə qardaş ölkənin Xalq artisti Yıldız Usmanovanın öz ansamblı ilə birlikdə necə parlaq çıxış etdiyindən heyranlıqla danışdı. Bizim musiqiçilərimiz də tez-tez rəsmi və ya fərdi qaydada Özbəkistana tədbirlərə, ə məclislərinə dəvət olunurlar. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanla Özbəkistan necə canbir-qəlb, bağrıbadaş ölkələrdir.

Dünən axşam Heydər Əliyev Sarayında Özbəkistan Dövlət Simfonik Orkestrinin iştirakı ilə "Özbəkistan mədəniyyəti günləri"nin açılış mərasiminə həsr olunmuş konsert proqramı böyük təmtəraqla keçib. Bu gün mədəni forum çərçivəsində Azərbaycan Milli Kitabxanasında iki ölkənin mədəniyyət nazirlərinin "Özbək ədəbiyyatı guşəsi"nin açılışı və özbək ədəbiyyatının görkəmli nümayəndəsi, özbək romantikasının banisi Abdulla Qadirinin "Ötən günlər" ("Otgan kunlar") əsərinin Azərbaycan dilinə tərcümə olunmuş yeni nəşrinin təqdimat mərasimi keçiriləcək.

Ümumiyyətlə, "Özbəkistan Mədəniyyəti Günləri"nin zəngin proqramı var. Buraya Muqimi adına Dövlət Musiqili Teatrının kollektivi tərəfindən Azərbaycan Dövlət Musiqili Teatrın səhnəsində "Otgan kunlar" ("Ötən günlər") əsəri əsasında hazırlanmış tamaşanın, həmçinin Azərbaycan dramaturqu Məcid Şamxalovun əsəri əsasında hazırlanmış "Kaynona" (Qayınana) səhnə əsərinin nümayişi, özbək kulinariya və sənətkarlıq sərgisi, folklor ustalarının konsert proqramı və özbək plovunun paylanması mərasimi və s. daxildir.

İnanırıq ki, möhkəm təməllər üzərində bərqərar olan tarixi-mədəni əlaqələrimiz bundan sonra daha da genişlənəcək və zənginləşəcək.

***

**Dünən Heydər Əliyev Sarayında Özbəkistan Mədəniyyət Günlərinin açılış mərasimi keçirildi.**

Məclisi giriş sözü ilə açan Azərbaycan Mədəniyyət naziri Adil Kərimli Azərbaycan və Özbəkistan arasında dərin bağlar olduğunu qeyd edərək, təkcə mədəniyyət sahəsində deyil, digər sferalarda da hərtərəfli əlaqələrdən söz açdı. Bildirdi ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq "sadəcə" ikitərəfli münasibətlərlə məhdudlaşmır, bir sıra beynəlxalq və regional təşkilatlar çərçivəsində də uğurla davam etdirilir. Milli dəyərlərimizin və mədəniyyətimizin qorunub saxlanılması, qlobal miqyasda təbliği istiqamətində də birgə fəaliyyət göstəririk və beynəlxalq müstəvidə vahid mövqedən çıxış edirik.

Sonra Özbəkistan Dövlət Simfonik Orkestrinin iştirakı ilə bu ölkənin əməkdar artisti, Azərbaycan Respublikasının "Dostluq" ordeninə layiq görülmüş dirijor Kəmaləddin Orunbayevin rəhbərliyi ilə mədəniyyət günlərinin açılışına həsr olunmuş konsert proqramına start verildi. Özbək incəsənət xadimlərinin ifasında hər iki qardaş ölkənin musiqisini və mədəniyyətini əks etdirən ifalar səsləndirildi.

Qeyd edək ki, avqustun 4-dək davam edəcək mədəniyyət günləri çərçivəsində tanınmış özbək sənətçilərinin iştirakı ilə böyük konsert proqramı, teatr tamaşalarının nümayişi, kitab sərgisinin keçirilməsi və digər tədbirlər nəzərdə tutulub.

Məşhur sənətçilərdən Özbəkistanın Xalq artistləri Fərrux Zakirov, Nəsibə Abdullayeva, Haşimjon İsmaylov, Zulayxo Boyxanova, Gulsanam Mamazoitova, Jenisbek Piyazov, Samandar Alimov və başqaları azərbaycanlı sənətsevərlərin qarşısında çıxış edəcəklər.

Xalqımız özbək ədəbiyyatı, incəsənəti, mətbəxi və folklor nümunələri vasitəsilə qardaş ölkə mədəniyyətinin parlaq inciləri ilə tanış olmaq imkanı əldə edəcək.

***Əli NƏCƏFXANLI,***
***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto),***
***"Xalq qəzeti"***

# "Heydər Əliyev və Azərbaycan dili"



**"Heydər Əliyev ili" çərçivəsində 1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günündə Göyçay şəhər Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda dəyirmi masa keçirilib.**

Məclisi giriş sözü ilə açan Göyçay Rayon İcra Hakimiyyətinin başçısının müavini Zivər Zeynalova ümummilli lider Heydər Əliyevin Azərbaycan ədəbi dilinin saflığının qorunmasına, ana dilinin inkişafına və zənginləşməsinə daim diqqət və qayğı göstərməsindən söz açıb.

Respublikanın Əməkdar müəllimi Adil Məmmədov, şəhər 5 nömrəli tam orta məktəbin müəllimi İlahə Aslanova, Göyçay şəhər 6 nömrəli tam orta məktəbin müəllimi Aynur Əliyeva Azərbaycan dilinə dövlət dili statusunun verilməsinin məhz Ümummilli liderin səyi və təşəbbüsü ilə 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasına "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" maddəsi ilə gerçəkləşməsini vurğulayıblar.

Bildirilib ki, Heydər Əliyevin 2001-ci ilin 9 avqust tarixli Fərmanı ilə "1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi qeyd olunur. Ana dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tədbirlərində eşidilməsi qürurvericidir. Dil təkcə ünsiyyət vasitəsi deyil, həm də xalqın tarixi, ədəbiyyatı, mədəniyyətidir. Ulu öndər bildirirdi ki, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz ana dilini, dinini, milli adət və ənənələrini unutmamalı və onları təbliğ etməlidir.

Sonda "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda videoçarx nümayiş olunub.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Qəbələdə Bakı Kamera Orkestrinin konserti

**Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində axşam musiqisevərlər Heydər Əliyev Konqres Mərkəzində növbəti konsert proqramını izləyiblər.**

Bakı Kamera Orkestrinin təqdim etdiyi konsert tanınmış pianoçu Bella Davidoviçin 95 illik yubileyinə həsr olunub.

Konsertin birinci hissəsində orkestr Dmitri Sitkovetskinin (Böyük Britaniya) dirijorluğu ilə İohan Sebastyan Baxın "Simlilər üçün 1 nömrəli rəqs süitası"nı təqdim edib.



Konsertin ikinci hissəsində Dmitri Sitkovetski violində Aleksandr Raskatovun violin, simlilər və zərb aləti üçün "V.A.Motsartın həyatından beş dəqiqə", Arvo Pyartın violin, simlilər və zərb aləti üçün "Qardaşlar", Bella Bartokun violin və simlilər üçün "Rumın xalq rəqsləri", Sergey Raxmaninovun simlilər üçün "Vokaliz", Fikrət Əmirovun "Nizami" simfoniyasından II və IV hissələr, Firəngiz Əlizadənin simlilər üçün "Rəqs", Leonit Desyatnikovun simlilər üçün "Bukovina mahnıları" əsərlərini ifa edib.

# Festivalda Sergey Raxmaninov da anıldı

**Uğurla davam edən XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə dahi rus bəstəkarı Sergey Raxmaninovun 150 illik yubileyinə həsr olunmuş konsert proqramı təqdim edilib.**



Konsertdən əvvəl Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyeva çıxış edərək Sergey Raxmaninovun həyat və yaradıcılığı barədə məlumat verib. Kamera konsertində Mixail Lidski (Rusiya, piano), Xalq artisti, pianoçu Murad Adıgözəlzadə və Henri-David Varema (Estoniya, violonçel) tamaşaçılar qarşısında maraqlı konsert proqramı ilə çıxış ediblər.

Konsertdə dahi bəstəkarın "Piano və violonçel üçün sonata, sol minor", piano üçün prelüdlər, etüd-lövhələr, "Barkarola", "Qırıntılar" əsərləri səsləndirilib.

***"Xalq qəzeti"***


# "Azərişıq" ASC

## "Abşeron rayonunun Xırdalan şəhəri ərazisində yerləşən mövcud 110/10 kV-luq "Əliağa Vahid" yarımstansiyasının 110/35/10 kV-luq 2x25 mVA gücündə yenidən qurulması" işlərinin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1. "Azərişıq"ASC "Abşeron rayonunun Xırdalan şəhəri ərazisində yerləşən mövcud 110/10 kV-luq "Əliağa Vahid" yarımstansiyasının 110/35/10 kV-luq 2x25 mVA gücündə yenidən qurulması" işlərinin satın alınması.

İştirak haqqı 1500 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat-"Azərişıq" ASC
H/h- AZ83AIIB33020029441802068118
VÖEN- 9900069391
Benefisiar Bank- "Kapital Bank" ASC-nin Gənclik filialı
Kod- 200189
VÖEN- 9900003611
M/h- AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
Əlaqələndirici şəxs- Namik Heybətov.
Əlaqə telefonu (şəhər)- 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
Ünvan- AZ1009. Bakı şəhəri, M.Əliyev küçəsi 130.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə; (sənədlərin təsdiqi tender elanı dərc edilən tarixdən sonra notarial qaydada təsdiq olunması zəruridir).

1. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış; (sənədlərin təsdiqi tender elanı dərc edilən tarixdən sonra notarial qaydada təsdiq olunması zəruridir).
2. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış; (sənədlərin təsdiqi tender elanı dərc edilən tarixdən sonra notarial qaydada təsdiq olunması zəruridir).
3. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
4. İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı.
5. İddiaçının mikro, kiçik , orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənədi.
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki sənədlər).
7. İddiaçının son 3(üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat.
8. İddiaçının satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd olunan sahədə peşəkarlığının, iş təcrübəsinin, texniki və maliyyə imkanlarının, elektrik mühəndislərinin əmək müqavilələrinin, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olmağı vacibdir. Bununla yanaşı "PODRATÇI" son üç ildə elektrik stansiyalarının, xüsusilə 110kV-luq yarımstansiyaların, elektrik verilişi xəttlərinin tikintisi və yenidənqurulması üçün hər birinin ümumi məbləği 5 milyon manatdan az olmamaq şərtilə ən azı 3 oxşar layihənin icrasını başa çatdırmış təsdiqedici sənədləri təqdim etməlidir.
9. Müvafiq lisenziya və icazələr.
10. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
11. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).
12. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
13. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 4 sentyabr 2023-cü il saat 15.00-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 sentyabr 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilən zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 sentyabr 2023-cü il saat 15.00-da Bakı, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***"Azərişıq" ASC-nin tender komissiyası***


# Türkiyədə yeni məktəbə "Şuşa" adı verildi

**Türkiyənin İğdır şəhərinin Topçular məhəlləsindəki Heydər Əliyev Fənn Liseyinin qarşısında yeni tikilən orta məktəbə "Şuşa" adı verilib. Bu təkliflə İğdır valisi Hüseyn Engin Sarıibrahimə yerli "Yeşil İğdır" qəzetinin baş redaktoru Cabbar Şıktaş müraciət etmişdi.**



İğdırlı jurnalistin arzusu yüksək səviyyədə qəbul edilərək bugünlərdə gerçəkləşdirilib. Müvafiq qərarı imzalamış vali yeni orta məktəbə "Şuşa" adının verilməsini belə dəyərləndirdi: "44 günlük müharibədən sonra öz azadlığına qovuşan Şuşa şəhəri Prezidentimiz Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin birliyi, dostluq və qardaşlıq bağı sayəsində azadlığına qovuşmuşdur. Burada imzalanmış Şuşa Bəyannaməsi ilə dünyaya çox önəmli mesajlar verilmişdir. Bursada isə Şuşa " Türk Dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir. Yeni istifadəyə veriləcək orta məktəbə "Şuşa" adının verilməsi də gözəl bir təşəbbüsdür. Şəhərimizə xeyirli olsun".

"Yeşil İğdır" qəzetinin baş redaktoru Cabbar Şıktaş qəzetimizə açıqlamasında da bunları dedi: "30 ildir ki, işğal altında olan Şuşa 44 günlük Vətən savaşından sonra öz azadlığına qovuşdu. Hər iki lider – Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev əl-ələ tutaraq dosta güvən, düşmənə göz dağı verdilər. Şuşa bu il Türk Dünyasının mədəniyyət paytaxtı missiyasını uğurla yerinə yetirir. Qarabağ müharibəsi qəhrəmanlarını yad etmək, "Şuşa" adını qəlbimizdə yaşatmaq isə hər birimizin türklük borcudur. Əgər Xocalı bizim qan yaddaşımızdırsa, Şuşa igidlərimizin Vətən üçün şəhadətə gözlərini qırpmadan getdiyi müqəddəs savaşın və Zəfərimizin simvoludur. Hörmətli valimizin təklifimizi qəbul edib yeni məktəbimizə "Şuşa" adı verməsindən hədsiz məmnunluq duyuram".

Əlavə edək ki, İğdırın Topçular məhəlləsində fəaliyyətə başlayacaq yeni orta məktəb 160 şagird yerlikdir. Məktəbin direktoru Fatma Kurt artıq şagird qəbulu üçün məktəbdə hazılıq başladığını bildirib.

***Səbuhi HƏSƏNOV,***
Naxçıvan

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 161 (30277) 2 avqust 2023-cü il, çərşənbə

veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Paralimpiya Oyunlarına daha bir lisenziya

**Azərbaycan paraüzgüçüsü Raman Saley dünya çempionatında gümüş medal qazanıb.**

İngiltərənin Mançester şəhərində keçirilən yarışda təmsilçimiz 100 metr məsafəyə arxasıüstə üzmə növündə 1:00.83 nəticə göstərərək fəxri kürsünün ikinci pilləsinə qalxıb. Bununla da, 3 qat paralimpiya çempionu Azərbaycana Paris–2024 Yay Paralimpiya Oyunları üçün növbəti lisenziyanı qazandırıb.

Üzgüçümüz 100 metr məsafəyə batterflyay üsulu ilə üzmə yarışında isə 58.72 saniyə nəticə ilə finala çıxıb.



## Güləşçimiz dünya çempionatının finalında




**Türkiyənin İstanbul şəhərində U-17 dünya çempionatında güləşçilərimiz mübarizəyə başlayıblar.**

Yarışın birinci günündə yunan-Roma güləşi üzrə 5 çəkidə finalçılar müəyyənləşib. Təmsilçilərimizdən iyul ayında U-15 Avropa çempionatının qalibi olan Yusif Əhmədlinin (65 kq) yuxarı yaş kateqoriyasında debütü uğurlu alınıb. Yarışa inamla başlayan Azərbaycan pəhləvanı bütün rəqiblərini məğlub edərək finala yüksəlib. Həlledici mərhələdə onun rəqibi rusiyalı Zaur Beslekoyev olacaq.

Komandamızın digər üzvləri Elnar Ziyadov (48 kq), Elmin Əliyev (80 kq) təsəlliverici görüşdə mübarizə aparacaqlar.

## Basketbol millisinin və "Neftçi"nin təqvimi müəyyənləşib

**3x3 basketbolu üzrə Azərbaycan millisinin və "Neftçi" klubunun Dünya Qadın Seriyasının növbəti mərhələsində keçirəcəyi oyunların təqvimi müəyyənləşib.**

Azərbaycan yığması Çexiyanın paytaxtı Praqada təşkil olunacaq yarışda qrupa vəsiqə qazanmaq üçün İsveçrə və Çili ilə təsnifat matçlarında qarşılaşacaq. "Neftçi" isə C qrupunda Litva və Latviya milliləri ilə üz-üzə gələcək.

Millimiz ilk təsnifat oyununu avqustun 4-də, Bakı vaxtı ilə saat 13:00-da İsveçrəyə qarşı keçirəcək. "Neftçi" isə qrupdakı birinci qarşılaşmasında həmin gün, Bakı vaxtı ilə saat 15:40-da Latviya yığması ilə mübarizə aparacaq.



3x3 basketbolu üzrə Dünya Qadın Seriyasının növbəti mərhələsi avqustun 4-5-də keçiriləcək. Turnirə 14 komanda qatılacaq. Qruplarda ilk iki yeri tutacaq komandalar dörddəbir finala vəsiqə qazanacaqlar.

## Universiadada daha bir bürünc medal

**Çinin Çendu şəhərində keçirilən XXXI Ümumdünya Yay Universiadasında komandamızın çıxışı davam edir.**

Universiadada növbəti medalı yığmamızın aktivinə cüdoçularımız yazdırıblar. Cüdo üzrə kişilərin mübarizəsində Kənan İsmayılov, Rəşid Məmmədəliyev, Məhərrəm İmamverdiyev, Elcan Hacıyev və Ruslan Nəsirlidən ibarət komandamız Monqolustan komandasına 3:1 hesabı ilə qalib gələrək bürünc medal qazanıb.

Bundan əvvəl bədii gimnastımız Zöhrə Ağamirova halqa, gürzlərlə hərəkətlərin icrasında gümüş, lentlə hərəkətlərdə isə bürünc medala sahib olub.

Fərdi yarışlarda isə cüdoçularımız Rəşid Məmmədəliyev (73 kq) gümüş, Yaşar Nəcəfov (66 kq), Leyla Əliyeva (48 kq) bürünc medala yiyələniblər.

Universiadada Azərbaycanı 20 ali təhsil müəssisəsindən 18-27 yaş aralığında 87 atlet 16 idman növündə təmsil edir.

*L.SABİRQIZI,"Xalq qəzeti"*

Texnologiya yenilikləri

## Süni intellekt direktor təyin edir

**Süni intellektli robot Kolumbiyada bir şirkətə baş direktor (CEO) təyin edilib. "Mika" adlanan robotlar yaxın gələcəkdə dünyada daha çox şirkətə rəhbərlik edəcək.**

Mika ən son alqoritmlər və proqram dilləri ilə təchiz olunub. Şirkət işçiləri əvvəlcə ona şübhə ilə yanaşsalar da, artıq Mikanın şirkətlərinə verdiyi dəyəri anladıqlarını bildiriblər.

Kolumbiyanın "Dictador" firmasının rəhbəri seçilən Mika iddia edir ki, ünsiyyət, strategiya planlaması və dizayn



da daxil olmaqla bir çox işlərə kömək edəcək. Artan maaş və ya məzuniyyət istəməyən işçi kimi şirkətə çox faydalı olacaq.

Mikanın əsas işi "Dictador"u idarə etmək olsa da, o, bu ayın əvvəlində BMT-nin konfransındakı çıxışı ilə siyasət dünyasında da tanınır. Bu əlamətdar hadisə dünyanın ilk robot-insanın mətbuat konfransı olub və burada Mika digər robotlar ilə birlikdə bəşəriyyətin gələcəyi haqqında danışıb.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## Köhnə "iPhone"lar qiymətə mindi

**"Twitter" keçən həftə "X" olaraq yeniləndi və bununla da həm veb-saytdakı loqo, həm də smartfonlardakı tətbiq nişanları dəyişdi. Lakin istifadəçilər hələ də əvvəlki versiyada qalmaq istəyirlər. Belə ki, köhnə "Twitter" loqosu olan "iPhone" modelləri onlayn mağazalarda minlərlə dollara satılır.**




Bəzi insanlar proqramı yeniləməkdən imtina edirlər. Bunun əvəzinə, onlar bu fürsətdən istifadə edərək "iPhone"larını "eBay"da köhnə "Twitter" loqosu ilə satışa çıxarırlar. Həmin "iPhone"ların qiyməti bir neçə min dollardan 25 min dollara qədər dəyişir. İstifadəçilər tərəfindən daha çox kolleksiya məqsədi ilə alınır.

Qeyd edək ki, artıq bir neçə min dollara satılmış "iPhone" modellərinə rast gəlmək mümkündür.

*Aytən NƏCƏFOVA, "Xalq qəzeti"*

Maraq dünyamız

## Gözlənilməz kəşflər



**Bütün elmi kəşflər uzun təcrübələrdən və yorucu düşüncələrdən sonra əldə edilməyib. Bəzən tədqiqatçılar fərqli, gözlənilməz nəticələr qazanıblar.**

Məsələn, 1669-cu ildə Hamburq kimyagəri Hennig Brand fəlsəfə daşının axtarışı zamanı ağ fosfor kəşf edib. Mikrodalğalı soba da təsadüfün nəticəsidir. "Raytheon Corporation"un mühəndisi Persi Spenser 1945-ci ildə radar layihəsi üzərində işləyərkən maqnetronu sınaqdan keçirib. Bu zaman cibindəki şokoladın əridiyini müşahidə edib. Beləliklə, Persi Spenser mikrodalğalı radiasiyanın qidaları qızdıra biləcəyini başa düşüb. Elə həmin il "Raytheon Corporation" mikrodalğalı sobanı patentləşdirib.

## Rentgen şüaları necə aşkar olunub?

**1895-ci ildə Vilhelm Rentgen ani bir maraqla əlini elektron-şüa borusunun önünə qoyub. Alim əlinin şəklini fotoqrafiya lövhəsində görüb. Demək olar ki, hər bir sümük aydın görünüb. Beləliklə, Vilhelm Rentgen yeni bir metodu kəşf edib.**

Rentgen şüaları gözlə görünmür. Onları yalnız göstərdikləri təsirlə müəyyən etmək olur. Rentgen şüaları metal və qeyri-metaldan, üzvi maddədən keçə bilir. Bu səbəbdən rentgen şüaları tibbdə, texnikada istifadə olunur. Rentgen şüaları atomun, molekulun, kristalların quruluşunu öyrənməyə imkan verib.



## Saxarin şəkərdən 200 dəfə şirindir



**Konstantin Fahlberg kömür qətranını öyrənirmiş. Bir dəfə görüb ki, nədənsə, çörək ona çox şirin gəlir. Laboratoriyaya qayıdıb hər şeyi daddıqdan sonra şirin dadın mənbəyini tapıb. Bu təsadüfən kəşf etdiyi saxarin olub. 1884-cü ildə Fahlberq saxarini patentləşdirib və onun kütləvi istehsalına başlayıb.**

Əlbəttə, bu cür şəkər əvəzləyiciləri xeyli qənaətlidir və kalori miqdarı olduqca azdır. Amma şəkərdən 200 dəfə şirindir. Bu fakt bizi ondan müntəzəm istifadəyə təhrik edə bilər. Lakin bilməliyik ki, onu kor-koranə işlətmək qətiyyən yolverilməzdir. Daha aydın desək, təbii şəkərlə qidalandıqda insan orqanizmində lazımi miqdarda kalori qəbul etdikdən sonra təbii olaraq doyma prosesi baş verir. Lakin süni şəkər qəbul etdikdə orqanizmdəki bu təbii proses pozulur və insanda doymaq hissi yaranmır. Nəticə etibarı ilə doymaq hissini qarşılayacaq deyə artıq saxarin qəbul edilir, çəki artır.

Həmçinin şəkər əvəzedicilərindən uzunmüddətli istifadə baş ağrısı, qulaqlarda səs, depressiya, allergiya və s. xəstəliklər əmələ gətirir.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

## 2 min illik hamam

**Türkiyənin Mərkəzi Yozgat vilayətində yerləşən 2000 illik "Basilica Therma" adlı Roma hamamında geniş abadlıq-quruculuq işləri son mərhələsinə yaxınlaşır.**

Yozgat valisi Ziya Polat jurnalistlərə açıqlamasında bildirib ki, abadlıq işləri avqustun 15-də başa çatacaq və bu, dəyərli turistik məkanda sakinlərə və qonaqlara xidmət göstəriləcək. Layihə çərçivəsində hamamın ətrafında qəbul mərkəzi, yerli məhsullar bazarı, yeməkxana, həmçinin gəzinti və foto çəkiliş sahələri də yaradılacaq.

Yerli sakinlər tərəfindən "Kral qızı" kimi də tanınan bu məkan 2018-ci ildə YUNESKO-nun Müvəqqəti Dünya İrs Siyahısına daxil edilib.



Tarixçilərə görə, Yozgatın Sarıqaya rayonunda yerləşən bu hamamın suyu vaxtilə Kayseri vilayətində yaşayan Roma imperatorunun sağalmaz xəstəlikdən əziyyət çəkən qızını sağaltmışdı.

*F. HÜQUQQIZI, "Xalq qəzeti"*

## Yeni superkeçirici diod

**Massaçusets Texnologiya İnstitutunun tədqiqatçıları elektron cərəyan ötürülməsini gücləndirə və mürəkkəb hesablamalarda enerji istifadəsini azalda bilən səmərəli superkeçirici diod yaradıblar.**

"Scitech" saytı xəbər verir ki, institutdan bir qrup alim kvant hesablamalarına sərf olunan maliyyə vəsaitini azaltmaq üçün tədqiqatlara başlayıb və nəticədə cərəyanı indikindən daha səmərəli ötürə bilən, sadə superkeçirici cihaz əldə ediblər. Bu cihaz yüksək hesablama sistemlərinin enerji istehlakını kəskin surətdə azaltmağa proqramlaşdırılıb. İnkişafın ilkin mərhələsində olmasına baxmayaraq, diod digər oxşarlarından iki dəfə artıq səmərəlidir. Araşdırmaçılar sözügedən texnologiyanı ən lazımlı sahə olan kvant hesablamalarına uyğunlaşdırmağa çalışırlar.

Massaçusets Texnologiya İnstitutunun Fizika departamentinin müdiri Caqadiş Mudera qeyd edir ki, üzərində təkmilləşdirmə əməliyyatı aparılan diod



texnologiyası gələcəkdə robot qurğuları üçün də əvəzedilməz vasitə olacaq, diodun az enerji sərfi hesabına cihazda temperaturu tənzimləməsi onun ömrünü uzadacaq.

*Leyla HADİ, tələbə-jurnalist*

## "Huawei"nin yeni smartfonu

**"Huawei" şirkəti də yeni qatlana bilən telefon istehsalına başlayıb. "Mate X3 Pro 5G"nin tezliklə satışa çıxarılacağı gözlənilir.**



Çin texnologiya nəhəngi tərəfindən 4 avqust 2023-cü ildə keçiriləcək Huawei Developers Konfransında təqdim ediləcək cihaz şirkətin 3 yeni smartfon modeli arasında ən diqqətçəkən model olaraq xarakterizə edilir.

Qeyd edək ki, "Sony" şirkəti də bu ilin mayında qatlana bilən ilk smartfonunu buraxmışdı.

*F. SALMANOVA, "Xalq qəzeti"*

Sağlamlıq

## Çimməyin qaydası və faydası

**Alimlər belə hesab edirlər ki, gigiyenik cəhətdən nə qədər faydalı olsa da, az çimmək lazımdır. Bu fikir çoxlarına qəribə gələcək. Çünki, biz, əslində, tez-tez, yay aylarında isə gündə bir neçə dəfə çimməyi sevir və bundan zövq alarıq.**

Bu yazıda yuyunmağın zərərli təsirindən söz açırıq. Qeyd edək ki, fikirlərin sabunla əl-üz yumağa dəxli yoxdur. Çoxumuz şırnaqla, özü də çox isti su ilə çimməyə vərdiş etmişik. Bilməliyik ki, bunun bizim dərimizə faydası yoxdur.



Elmi cəhətdən 37–38 dərəcə temperaturda olan su çimmək üçün təhlükəsizdir. Qaynar suda yuyunmağa adət edənlər bilməlidir ki, bu, dərini zərərli şüalardakı aşındırıcı təsirlərdən mühafizə edən və nəm saxlayan incə piy qatını zədələyir. Dərinin yağlı müdafiə qatında faydalı bakteriyalar və digər mikroorqanizmlər toplanır. Tez-tez, xüsusilə də isti su ilə yuyunmaq onları məhv edir. Nəticədə, qoruyucu sədd aradan qalxır və zərərli bakteriyalar dəri infeksiyalarına və allergik reaksiyalara yol açır. Bununla dəri quru, qıcığa həssas və rəngi qızarmış olur.

Onu da qeyd edək ki, duşda 20 dəqiqədən çox qalmaq da dəridə sadaladığımız xoşagəlməz əlamətlərin yaranmasına səbəb olur.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, avqustun 2-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək.**

Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi əvəz olunacaq. Gecə 21-26°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 754 mm civə sütunu, nisbi rütubət gecə 60-65 , gündüz 40-45 faiz olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 33-38°, dağlarda gecə 11-16° , gündüz 19-24° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4842
SİFARİŞ 1940
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00